11 sentyabr 2019 №64 (1648) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

# Türk ellərindən gənc ifaçıların Bakıya musiqi sovqatı

### TÜRKSOY-un Gənclər Kamera Orkestrinin konserti könülləri oxşadı

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un Gənclər Kamera Orkestrinin Orta Asiya və Azərbaycan turnesi paytaxtımızda konsert proqramı ilə başa çatdı.

Xatırladaq ki, kollektivin səfəri Qazaxıstandan başlamışdı. Orkestr avqustun 27-dən sentyabrın 2-dək Qazaxıstanın Türküstan, Şımkent, Taraz şəhərlərində konsertlər vermişdi. Bunun ardınca kollektiv sentyabrın 4-də Qırğızıstanın paytaxtı Bişkekdə çıxış etmiş, ayın 6-da yenidən Qazaxıstana qayıdaraq daha bir konserti Almatı şəhərində təqdim etmişdi. Orkestr daha sonra Bakıya gəlib.

Sentyabrın 9-da TÜRKSOY-un Gənclər Kamera Orkestri M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında çıxış etdi.



TÜRKSOY-un baş katibi Düsen Kaseinov konsertdən əvvəl jurnalistlərə müsahibəsində bildirdi ki, turne Türk Şurasının (Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası) 10 illiyinə həsr olunub və silsilə konsertlər Bakıda tamamlanır.

davamı səh. 2-də

## İndoneziya mədəniyyəti festivalı

Sentyabrın 11-dən 16-dək Bakıda İndoneziya mədəniyyəti festivalı keçiriləcək. "Arxipelaqın ən zəngin mədəniyyətini yaşatmaq" devizi altında gerçəkləşəcək festival İndoneziyanın ölkəmizdəki səfirliyinin təşkilatçılığı ilə reallaşan üçüncü belə tədbirdir.

Festivalın açılış mərasimi sentyabrın 11-də Heydər Əliyev Sarayında keçiriləcək. Gecənin bədii hissəsində İndoneziyanın məşhur caz musiqiçisi Dhiki Darmavan çıxış edəcək. Konsertdə həmçinin Azərbaycan Dillər Universitetinin azərbaycanlı tələbələri İndoneziyanın professional rəqqasları ilə birgə bu ölkənin rəqs nömrələrini təqdim edəcəklər. "Garuda Bakı" və "Sampan Bujana Sentra" rəqs klublarının rəqqasları da öz çıxışları ilə iştirakçılara xüsusi zövq bəxş edəcək.

## "Məndə sığar iki cahan..."

Azərbaycan əsilli dünya şöhrətli müğənni və bəstəkar Sami Yusufun dahi şair və mütəfəkkir İmadəddin Nəsiminin "Sığmazam" qəzəli əsasında hazırladığı kompozisiyanı özünün "YouTube" kanalında yerləşdirdiyi andan internet məkanında əsl hadisəyə çevrilib. "Məndə sığar iki cahan..." musiqili kompozisiyasını ilk gündə 200 minə yaxın insan izləyib.

Qeyd edək ki, məşhur müğənni bu kompozisiyanı ilk dəfə bu il iyunun 30-da Bakıda – Heydər Əliyev Mərkəzində UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyasının açılış mərasimində canlı ifa edib. Müğənni ilə səhnəni xanəndə Təyyar Bayramov, aşıq Samirə və instrumental ifaçılarımız bölüşüblər.

davamı səh. 3-də

## Moskva Beynəlxalq Kitab Sərgi-Yarmarkasında işgüzar görüşlər

Xəbər verdiyimiz kimi, sentyabrın 4-dən 8-dək Moskvada keçirilən 32-ci Beynəlxalq Kitab Sərgi-Yarmarkasında Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə ölkəmiz də təmsil olunub.

Azərbaycan stendində 200 adda, 400 nüsxədən çox kitab nümayiş olunub. Stendimiz sərgi-yarmarkanın iştirakçı və qonaqları tərəfindən maraqla qarşılanıb. Sərgi-yarmarka müddətində bir sıra görüşlər keçirilib.

səh. 4

# Şeir, incəsənət və mənəviyyat

Sentyabrın 28-dən oktyabrın 1-dək Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə ikinci dəfə Nəsimi – şeir, incəsənət və mənəviyyat festivalı keçiriləcək. Festivalın proqramı açıqlanıb. Festival çərçivəsində Bakıda və şairin doğulduğu Şamaxıda ümumilikdə 30-dək tədbir təşkil olunacaq.

Budəfəki festivalda bir sıra yeniliklər olacaq. Festivalda bu il ilk dəfə Nəsiminin seçilmiş qəzəlinə bir sıra tədqiqatçı və şeir bilicisi öz şərhini verəcək, həmin təfsirlərin müzakirəsi olacaq.

"Mən ki, dərvişəm, fəqirəm, padişahi-aləməm" qəzəlinə Azərbaycan, Rusiya, İran, Türkiyə və Misirdən 10-dan çox müəllif öz təhlillərini təqdim edəcək. Festivalda beynəlxalq miqyasda tanınmış nəsimişünaslar, şairlər, alimlər və filosoflar mühazirələrlə çıxış edəcəklər. Rusiyalı psixoloq Aleksey Sıtnikov, ABŞ-dan olan tədqiqatçı Alan Qodlas, italiyalı şair David Rondoni, Azərbaycan əsilli filosof və rəssam, Böyük Britaniyada yaşayan Zeyqəm Əzizov mühazirələrində Nəsimi fəlsəfəsi ilə keçmişə və müasir dövrə aid müxtəlif nəzəriyyə və konsepsiyalar arasında paralellər aparacaqlar.

Festival çərçivəsində, həmçinin almaniyalı alim, tanınmış nəsimişünas Mixael Hess və Böyük Britaniyada tədqiqatçı soydaşımız Orxan Mirqasımovun Nəsimi və hürufilik haqda kitabları təqdim ediləcək.

davamı səh. 2-də



## Tağıyevin heykəli Xanlar Əhmədovun layihəsi əsasında hazırlanacaq

Böyük mesenat, Azərbaycanda mədəniyyət və maarifçiliyin inkişafına mühüm töhfələr vermiş neft milyonçusu Hacı Zeynalabdin Tağıyevin Bakı şəhərində ucaldılacaq heykəlinin hazırlanması ilə bağlı müsabiqədə qalib məlum olub. Tağıyevin abidəsi tanınmış heykəltəraş, Xalq rəssamı Xanlar Əhmədovun layihəsi əsasında hazırlanacaq.

səh. 5

# Onun bütün filmləri yüksək peşəkarlığı ilə seçilir

Sentyabrın 10-da Azərbaycan Dövlət Film Fondunda ilk sənədli film rejissorlarımızdan Niyazi Bədəlovun (1909-1997) 110 illik yubileyinə həsr olunmuş tədbir keçirildi.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının birinci katibi, Əməkdar incəsənət xadimi Cəmil Quliyev qeyd etdi ki, Niyazi Bədəlov Azərbaycanda milli sənədli kinonun yaradıcılarından olub. O həm də Ümumittifaq Kinematoqrafiya İnstitutunun ilk azərbaycanlı məzunlarından idi və görkəmli rus rejissoru Sergey Eyzenşteynin tələbəsi olmuşdu.



Qeyd olundu ki, Azərbaycan kino salnaməsinin daha da zənginləşməsində Niyazi Bədəlovun mühüm xidmətləri var. Onun yaratdığı filmlərə nəzər salanda müxtəlif sahələrdən sənədli ekran əsərləri çəkdiyinin şahidi oluruq. Rejissorun bütün filmləri yüksək peşəkarlığı, öz yozumu, quruluşu, ideya-sənətkarlıq xüsusiyyətləri ilə seçilir. Bu gün sənədli filmlər çəkilərkən rejissorun zəngin irsindən də istifadə olunur.

davamı səh. 2-də

## Bir tar oxuyurdu...

"Sənətdə ürək birincidir!" devizilə TARı çırpınan ürəyə çevirmiş, ali hissi qabiliyyətilə qəlblər çalmış, şipşirin, dopdolu çalğısı, san-samballı mizrabı, məna-rənalı musiqi cümlələrilə qulaqlarda ulu səs, hafizələrdə xəlqi avaz, şüurlarda cürəbəcürə rəmzlər yaratmış virtuoz sənətkar...

Bu şəxsin (gələcək şəxsiyyətin) adını atasının dayısı, sənətkarlıq dəyərini isə dahi Üzeyir bəy verib.

...Yüksək zövqlü tamaşaçılardan ibarət zal sükuta qərq oldu. Məxmər pərdələr ağır-ağır qalxdı. On altı yaşlı Əhsənin səhnəyə peşəkar tarzənlərə məxsus sərbəstliklə çıxması buraya toplaşanların marağını daha da artırdı.

Ürəyi döyünə-döyünə tarı sinəsinə götürdü və neçə vaxtdı hamınınkından fərqli bu "sədəfli"si ilə ürəyində danışdığı sehrsirri birər-birər salon əhlinə söyləməyə başladı..."

səh. 5

## "Qız qalası. Qadın olmaq"

Sentyabrın 17-dən 27-dək Bakıda "Qız qalası. Qadın olmaq" ("Maiden Tower. To Be a Woman") adlı müasir incəsənət festivalı keçiriləcək.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin üzv dövlətlərin səfirlikləri və yerli tərəfdaşları ilə birlikdə təşkil etdiyi festival paytaxtla yanaşı regionları da əhatə edəcək.

Müasir incəsənət festivalının mövzusu Azərbaycan qadınlarının təməl hüquq və azadlarının, o cümlədən seçki hüququnun 100 illiyi ilə əlaqəlidir. Layihə ölkəmizdə, eləcə də bütün dünyada qadınların rolunun gücləndirilməsi məsələlərini özündə əks etdirir. Proqrama müxtəlif səpkidə müasir incəsənət kontekstində beynəlxalq sərgi, pablik art, video art, poeziya gecəsi, tematik film nümayişləri daxildir.

davamı səh. 3-də

Xalq rəssamı Əşrəf Heybətovun Şəkidə sərgisi



səh. 3

Qısametrajlı filmlərin "Qızıl nar" mükafatı uğrunda növbəti yarışması

səh. 3



Nyu-York moda həftəsində "Xarıbülbül çiçəyi"

səh. 8

# Türk ellərindən gənc ifaçıların Bakıya musiqi sovqatı

## TÜRKSOY-un Gənclər Kamera Orkestrinin konserti könülləri oxşadı

əvvəli səh. 1-də

Baş katib diqqətə çatdırdı ki, türkdilli ölkələrin gənc ifaçılarından ibarət orkestrin Bakı konsertinə Qazaxıstandan Ənvər Əkbərov və Tatarıstandan Renat Salavatov dirijorluq edəcəklər. Orkestrin tərkibində adları çəkilən ölkələrlə bərabər Rusiya, Türkiyə və Türkmənistan təmsilçiləri də var. Eləcə də azərbaycanlı gənc dirijor Mustafa Mehmandarov orkestrin üç dirijorundan biridir. Hazırkı qastrolun bir neçə konsertinə də Mustafa Mehmandarov rəhbərlik edib. Gənc və istedadlı dirijorun Vyanada konserti olduğu üçün orkestrin Bakı səfərində iştirak edə bilmir.

Düsen Kaseinov qeyd etdi ki, bu günə kimi orkestr Türkiyə, Avstriya, ABŞ, Almaniya, Albaniya, Fransa, İtaliya və s. ölkələrdə ümumilikdə 60-dan çox konsert proqramı təqdim edib. 2010-cu ildə TÜRKSOY-a üzv ölkələrin istedadlı konservatoriya tələbələrindən yaradılan kollektiv bütün konsertlərində türk dünyası bəstəkarlarının əsərlərini uğurla ifa edərək tamaşaçıların könlünü oxşayıb: "Biz bu gənclərin çıxışları ilə böyük fəxr duyuruq. Çünki onlar bizim musiqi mədəniyyətimizi və müasir bəstəkarlarımızın yaradıcılığını bütün dünyaya təbliğ edirlər.





Gələn il orkestrin 10 illiyidir. Bu münasibətlə kollektivin Avropa ölkələrinə və ABŞ-a qastrol səfərləri planlaşdırılır. Bugünkü repertuarımız da fərqlidir. Konsertdə Qərb klassik əsərləri ilə yanaşı, türk xalqlarının musiqisi də səslənir".

Daha sonra TÜRKSOY-un Gənclər Kamera Orkestrinin konserti təqdim olundu. Konsertin birinci hissəsində orkestrə tatarıstanlı Renat Salavatov dirijorluq etdi. İlk olaraq orkestr P.Çaykovskinin "Simli alətlər üçün serenada" əsərini səsləndirdi. Əsər musiqisevərlərə yüksək əhval-ruhiyyə bəxş etdi. 4 hissəli do-major, sol-major notların cazibəsində, eləcə də elegiya, vals, Vyana məktəbi və təbii ki, əsərin finalında rus xalq mahnılarının ruhu tamaşaçılara xoş anlar yaşatdı.

Gecədə "Üsküdara gedərkən" türk xalq mahnısı və Fikrət Əmirovun simli orkestr üçün yazdığı "Nizaminin xatirəsinə" simfoniyası da səsləndi. Əsərin musiqi boyalarının rəngarəngliyi, materialın dinamik, intensiv inkişafı, harmoniya dilinin əlvanlığı TÜRKSOY Gənclik Kamera Orkestrinin Bakı konsertinin final notları kimi öz möhtəşəmliyini bir daha nümayiş etdirdi.

### "Azərbaycan mədəniyyətinin TÜRKSOY səviyyəsində təbliği böyük önəm daşıyır"

Konsertin sonunda TÜRKSOY-un baş katibi Düsen Kaseinov səhnəyə çıxaraq Mədəniyyət naziri Əbülfəs Qarayevə Türk Şurasının 10 illiyi münasibətilə xatirə plaketi təqdim etdi.

Azərbaycanın TÜRKSOY-dakı fəaliyyətini yüksək qiymətləndirən baş katib bildirdi ki, Bakıda keçirilən bir çox tədbirlərdə, eləcə də beynəlxalq forumlarda, müxtəlif konfranslarda təşkilatın da təmsil olunması üzv ölkələr arasında əməkdaşlığı daha da artırır və onları bir-birinə yaxınlaşdırır: "Biz hamımız türk xalqlarını bir-birinə yaxınlaşdırmaq, ümumi tariximizi öyrənmək, ortaq mədəniyyətimizi inkişaf etdirmək kimi xeyirxah bir missiyanı yerinə yetiririk. Mədəniyyətimizi inkişaf etdirməklə yanaşı, onu dünyanın hər yerində təbliğ edirik".

2009-cu ildə yaradılan Türk Şurasının 10 illik fəaliyyətinin əhəmiyyətindən bəhs edən Düsen Kaseinov Mədəniyyət naziri Əbülfəs Qarayevə birgə səmərəli əməkdaşlığa görə təşəkkürünü bildirdi.

Əbülfəs Qarayev TÜRKSOY-un həyata keçirdiyi genişmiqyaslı tədbirlərin, eləcə də Azərbaycan mədəniyyətinin bu təşkilat səviyyəsində dünyada təbliğinin böyük önəm daşıdığını vurğuladı. Diqqətə çatdırdı ki, türkdilli dövlətlərin başçıları bu qurumun fəaliyyətini təqdir edir və hər zaman dəstək olurlar. Azərbaycan Prezidenti İlham Əliyevin TÜRKSOY-un fəaliyyətini yüksək qiymətləndirdiyini və hər zaman diqqətdə saxladığını deyən nazir dövlət başçısına minnətdarlığını bildirdi.

Əbülfəs Qarayev TÜRKSOY-un Gənclər Kamera Orkestrinin Bakı konsertinin böyük maraqla qarşılandığını qeyd edərək kollektivə gələcək fəaliyyətində uğurlar arzuladı.

**Lalə AZƏRİ**

# Onun bütün filmləri yüksək peşəkarlığı ilə seçilir

## Rejissor Niyazi Bədəlovun 110 illik yubileyi qeyd olundu

əvvəli səh. 1-də

Əməkdar incəsənət xadimi, kinoşünas Aydın Kazımzadə Niyazi Bədəlovun həyat və sənət yolundan söhbət açdı, onunla bağlı xatirələrini bölüşdü: "Ölkəmizin kino tarixində elə yaradıcı şəxsiyyətlər var ki, onların yaradıcılığı ictimai həyatla sıx bağlı olub. Niyazi Bədəlov da belə sənətkarlardandır. Onunla şəxsən tanış olduğumdan deyə bilərəm ki, bu insan sənət üçün, xalq üçün necə can yandırırdı. Onun yaratdığı ekran əsərləri kino salnaməmizin ən yaxşı sənədli filmlərindəndir".



Qeyd olundu ki, Şəkidə doğulan Niyazi Bədəlov əmək fəaliyyətinə 1927-ci ildə şəhərdəki "Yeni yol" kinoteatrında kinomexanik köməkçisi kimi başlayıb. 1931-1936-cı illərdə Moskvada Ümumittifaq Kinematoqrafiya İnstitutunun Rejissorluq fakültəsində təhsil alıb. Bakı kinostudiyasında əmək fəaliyyətini davam etdirən gənc rejissor "Sovet Azərbaycanı", "Ordenli Azərbaycan", "Gənc nəsil", "General Həzi Aslanov", "Dağlıq Qarabağ", "Məhəmməd Füzuli", "Hanı mənim övladlarım?", "Xalq şairi Səməd Vurğun", "Dağlarda ada", "Onun adı Serafino idi", "Xəzər üzərində körpü" – ümumilikdə 40-dək sənədli film, Moskvanın "Günün xəbərləri", "Sovetlər ölkəsində" kinojurnalları üçün yüzlərlə süjet çəkib.

Niyazi Bədəlov yaradıcılığının ilk illərində sovet filmlərinin Azərbaycan dilində səsləndirilməsində yaxından iştirak edib. 1930-cu illərin sonlarında Azərbaycan Dövlət Teatr Texnikumunun Kino aktyorluğu şöbəsində kino texnikası fənnindən dərs deyib. Həmçinin respublikamızda həvəskar kino hərəkatının təşkilatçılarından olub. Sənətkar 1944-cü ildə Azərbaycan SSR Xalq Komissarları Soveti yanında İncəsənət İşləri İdarəsinin sərəncamına əsasən özfəaliyyət dram dərnəyi bazasında Salyan Dövlət Dram Teatrını yaradıb.

Tədbirdə daha sonra rejissorun həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olundu.

**Fariz HÜSEYNOV**

# Batumi festivalında üç filmimiz nümayiş olunacaq

Gürcüstanın Batumi şəhərində sentyabrın 15-dən 22-dək XIV Beynəlxalq Müəllif Kinoları Festivalı (BIAFF 2019) keçiriləcək.




Festivalda ölkəmiz üç filmlə təmsil olunacaq. Rejissor Elmar İmanovun "Mövsümün sonu" filmi ən yaxşı bədii, Hilal Baydarovun "Xurmalar yetişən vaxt" filmi ən yaxşı sənədli, Orxan Ağazadənin "Oturacaqlar" filmi isə ən yaxşı qısa film adı uğrunda yarışacaq.

Almaniyalı rejissor Veit Helmerin Azərbaycanda çəkdiyi "Bra" filmi də festival proqramının bədii filmlər bölməsinə daxil edilib.

Kinofestival çərçivəsində məşhur polşalı rejissor Kşiştof Zanussi kimi kino xadimlərinin ustad dərsləri də nəzərdə tutulur.

# Şeir, incəsənət və mənəviyyat

## İkinci Nəsimi Festivalının proqramı açıqlanıb

əvvəli səh. 1-də

Builki festivalda kino sahəsində dinlərarası dialoq üzrə məşhur beynəlxalq SİGNİS mükafatına layiq görülmüş filmlərin nümayişi olacaq. Finlandiyalı rejissor Aki Kaurisməkinin "Ümidin o biri üzü" filmində fərqli dinlərə, mədəniyyətlərə və həyat tərzlərinə malik insanların anlaşması və dostlaşması əksini tapıb.

Silsilə tədbirlər çərçivəsində sentyabrın 28-də "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və İslam Tarixi, Mədəniyyəti və İncəsənəti Araşdırma Mərkəzinin (IRCICA) birgə təşkilatçılığı ilə "El sənəti" I Bakı Beynəlxalq Ənənəvi Sənətkarlıq Festivalı da start götürəcək.

Nəsimi festivalı çərçivəsində bu il həm də uşaq evləri və internat məktəblərinin sakinləri və məzunlarının iştirakı ilə "Ümidin yaradılması" sosial-mədəni layihəsi həyata keçiriləcək. Layihə üzrə dizayn kurslarına cəlb olunmuş 30 iştirakçı öz arzularını təsvir vasitəsilə əks etdirib və onların əl işləri sonra köynəklər üzərinə köçürülüb. Bu köynəklərin festival çərçivəsində nümayişi və satışı təşkil olunacaq. Layihənin məqsədi uşaq evləri və internat məktəblərinin sakinləri və məzunlarının yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək və onlara məşğulluq imkanları yaratmaqdır.

Festival günlərində Bakı və Şamaxıda bir sıra sərgilər də olacaq: sentyabrın 28-də Şirvanşahlar Sarayında açılacaq "İrfani sirlər" sərgisində Azərbaycan, Türkiyə, Fransa və Özbəkistandan olan 10 rəssam və heykəltəraşın əsərləri nümayiş etdiriləcək. Saray ərazisini əhatə edən ekspozisiyada mənəvi həyat və ruh təkamülünün sirlərinə həsr olunan videoart, qrafika nümunələri, instalyasiya və kinetik obyektlər təqdim olunacaq.

Sentyabrın 30-da "Qala" Arxeoloji-Etnoqrafik Muzey Kompleksində "Daşın nəğməsi" IV Beynəlxalq heykəltəraşlıq simpoziumu, "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunda isə VIII Beynəlxalq "Tullantıdan sənətə" sərgisi açılacaq.

Qala qəsəbəsində istifadəsiz sənaye anbarının divarları üzərində işlənmiş rəsm əsərlərindən ibarət "Danışan divarlar" incəsənət layihəsinin ictimai təqdimatı olacaq. Bu layihə üzrə Azərbaycan, Braziliya, Cənubi Afrika, İspaniya, Niderland və Fransadan olan rəssamların "urban/street art" (şəhər/küçə incəsənəti) janrında yaratdıqları əsərlər, Buzovna və Mərdəkan qəsəbələrindən olan yaradıcı uşaqların rəsmləri əsasında divar pannosu da nümayiş olunacaq.

Heydər Əliyev Mərkəzində Türkiyənin tanınmış rəssamı Ahmet Güneştekinin fərdi sərgisi açılacaq. Rəssamın məşhur "Ölümsüzlük otağı" əsəri də ekspozisiyada nümayiş olunacaq. Oktyabrın 1-də açılışı olacaq sərgi 2020-ci il martın 31-dək davam edəcək.

Şamaxı rayonunda isə "Şamaxı antologiyası" əlyazmasına (1468, Britaniya Muzeyi, London) dair sərgi açılacaq. XV əsrdə Şamaxının mədəni mərkəz olduğunu, burada yüksək kitab mədəniyyətinin mövcudluğunu nümayiş etdirən bu şeir məcmusu Azərbaycan miniatür sənətinin ən gözəl incilərindəndir. Əlyazmadakı miniatürlər sərgidə müxtəlif üsul və texnikalarla təqdim olunacaq.

Şamaxıda, həmçinin İmadəddin Nəsimiyə həsr olunan müasir incəsənət instalyasiyasının açılışı olacaq. Yüngül metal hissəciklərdən hazırlanan əsərin müəllifi rəssam Rəşad Ələkbərovdur.

Festival çərçivəsində bir sıra elan olunmuş müsabiqələrin nəticələri də açıqlanacaq: Azərbaycan Milli Xalça Muzeyinin Nəsimiyə həsr etdiyi xalça eskizi müsabiqəsinin yekun sərgisi açılacaq. Ekspozisiyada müsabiqənin qalibi olan 3 əsər əsasında toxunan xalçalar, təqdim edilən işlər arasından münsiflər heyətinin seçdiyi xalça eskizləri nümayiş olunacaq. Həmçinin Mədəniyyət Nazirliyinin "Söz" layihəsinin gənc şairlər arasında elan etdiyi Nəsimi ruhunda, yaxud bilavasitə onun şeirlərinə nəzirə olan ən yaxşı poetik əsər müsabiqəsinin nəticələri açıqlanacaq.

Festival günlərində müxtəlif ölkələrin incəsənət xadimləri və qruplarının ifasında mənəviyyat axtarışlarını, dinlər və mədəniyyətlərarası dialoqu tərənnüm edən musiqi proqramları və tamaşalar da təqdim olunacaq. Bu proqramlarda ayrı-ayrı dövrlərə aid ruhani və müasir musiqi nümunələri səslənəcək, fiziki imkanları məhdud insanların sağlam şəxslərlə bərabərlik və birgəliyinin ifadəsi olan rəqsləri nümayiş etdiriləcək.

Almaniyanın "Horizonte" ansamblı, Əfqanıstanın "Zəhra" orkestri, Kanadanın "Klara Furey" rəqs qrupu, Böyük Britaniyanın "Candoco" və "Lost Dog" rəqs qrupları, Estoniyanın "Tallinn Oğlanlar Xoru", İsrailin "Dudu Tassa & the Kuwaitis" qrupu maraqlı proqramlar təqdim edəcək.

Sentyabrın 29-da Şamaxının Meysəri kəndində Xalq artisti Nəzakət Teymurova dahi şairin poeziyası əsasında muğamlardan ibarət proqramla çıxış edəcək.

Həmin gün Azərbaycan Akademik Dövlət Filarmoniyasında isə tanınmış caz musiqiçisi Salman Qəmbərovun "Səmimi dialoqlar" layihəsi çərçivəsində Fransadan Mişel Qodar (serpent ifaçısı), Almaniyadan Marqrit Buxberger (barokko repertuarlı müğənni) və çinli Vu Vey (şenq ifaçısı) ilə birgə ifaları təqdim olunacaq.

Festival çərçivəsində sentyabrın 30-da Bakıda – İçərişəhərdəki Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində səhnələşdirilmiş poeziya axşamı keçiriləcək.

Həmin gün Opera və Balet Teatrında Çinin Anhui əyalətinin Huicin teatrının təqdimatında "İztirablı könül" tamaşası nümayiş olunacaq. Ənənəvi XVIII əsr üslubunda olan tamaşa özündə teatr sənəti və musiqi, eləcə də akrobatika və pantomima elementlərini birləşdirir.

Festivalın bağlanış mərasimi oktyabrın 1-də Heydər Əliyev Mərkəzində keçiriləcək. Proqramda Azərbaycan incəsənət xadimləri, həmçinin ABŞ, Türkiyə, İran, İordaniya və Mərakeşdən ifaçılar iştirak edəcəklər.

Qeyd edək ki, festival dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin (1369-1417) yaradıcılığının tədqiqi və təbliği, onun fikir və düşüncələrinin müasirlikdə əksini izləmək məqsədi daşıyır və ilk dəfə 2018-ci ildə keçirilib.

# Meksikalı pianoçunun konsert proqramları başa çatır

Ölkəmizə növbəti səfərə gələn meksikalı pianoçu Xesus Lepe Riko səfərini sentyabrın 11-də Sumqayıtda keçiriləcək konsertlə başa vuracaq.



Konsert proqramı Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Meksikanın ölkəmizdəki səfirliyi və Beynəlxalq Muğam Mərkəzinin birgə layihəsidir. İfaçı sentyabrın 2-də Beynəlxalq Muğam Mərkəzində çıxış etdikdən sonra növbəti konserti ayın 6-da Qəbələ Mədəniyyət Mərkəzində verib.

Konsertdən əvvəl rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova çıxış edərək Qəbələdə beynəlxalq tədbirlərin, musiqi festivallarının keçirilməsinin artıq ənənə halını aldığını vurğulayıb.

Meksikanın Azərbaycandakı səfiri Xuan Rodriqo Labardini bildirib ki, səfirlik ölkələrimiz arasında dostluq və mədəniyyət sahəsində əlaqələri genişləndirmək məqsədilə davamlı olaraq layihələr həyata keçirir. O diqqətə çatdırıb ki, bu, Qəbələnin Meksika mədəniyyəti ilə ilk tanışlığı deyil. 2016-cı ildə meksikalı rəssam Marqarita Moralesin Qəbələdə sərgisi təşkil edilib. Bir il sonra Qəbələ sakinləri Meksikanın ənənəvi mətbəxinin bəzi təamlarının dadına baxmaq imkanı əldə ediblər.

Konsertdə dünya şöhrətli bəstəkarlar Bax, Bethoven və Şopenin, həmçinin Meksika musiqiçiləri Xesus Belisario və Rikardo Kastronun əsərləri səsləndirilib.

"Azərbaycana ikinci dəfədir səfər edirəm. Şadam ki, builki konsertlərimdən biri Qəbələ şəhərində təşkil edilib. Bilirəm ki, hər il burada beynəlxalq musiqi festivalı keçirilir. Bura dünyanın bir çox ölkələrindən məşhur orkestrlər, musiqiçilər gəlirlər", - deyə Xesus Lepe Riko jurnalistlərə açıqlamasında bildirib.

Azərbaycan bəstəkarlarının yaradıcılığı ilə maraqlandığını deyən meksikalı pianoçu Qara Qarayevin "Yeddi gözəl" baletinin musiqisinə həvəslə qulaq asdığını söyləyib.

# “Məndə sığar iki cahan...”

## Məşhur müğənni Sami Yusufun Nəsiminin qəzəli əsasında hazırladığı kompozisiya internetdə rekord baxış qazanıb

Doqquz elementdən ibarət proqram “Qobustan”, “Atəşgah”, “Nəsimi poeziyası”, “Rəqs edən ürəklər”, “Xalçalar”, “Şirvanşahlar sarayı”, “Novruz bayramı”, “Şəki Xan sarayı” və “Azərbaycanın gələcəyə baxışı” mövzularına həsr olunub.





*əvvəli səh. 1-də*

Xatırladaq ki, Dünya İrs Komitəsinin Bakı sessiyasının açılış mərasimi üçün Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə “İrsin sonsuz ruhu” (“Timeless spirit of heritage”) adlı möhtəşəm mədəni proqram hazırlanmışdı. Azərbaycan mədəniyyətinə və bu coğrafiyada sivilizasiyaların inkişafına, tarixi abidələrin və irs məkanlarının şahid olduğu tarixə işıq salan proqramın yaradıcı prodüseri Andrey Baltenko (Rusiya), musiqi proqramının müəllifi isə Sami Yusuf olub.

Müğənni Sami Yusufun konsertin “Şirvanşahlar sarayı”, “Girdim yarın bağçasına” və “Nəsimi poeziyası”na həsr olunmuş hissələrini öz “YouTube” kanalında paylaşması böyük izləyici marağı doğurub. Konsertdən digər görüntülər də tezliklə yayımlanacaq.

Böyük Britaniyada yaşayan müğənni və bəstəkar Sami Yusuf BMT-nin sülh elçisidir. İlk albomu “Al-Muallim” ilə şöhrət qazanan müğənni “Time” jurnalı tərəfindən “İslam dünyasının ən böyük musiqi ulduzu” elan olunub.

***

Yeri gəlmişkən, dekabrın 8-də Azərbaycan əsilli dünyaca məşhur müğənni və bəstəkar Sami Yusuf Özbəkistan paytaxtında konsert proqramı ilə çıxış edəcək.

Daşkənddə “Humo Arena”da reallaşacaq konsert proqramında müğənni ən sevilən mahnılarını ifa edəcək.

# Türkiyədə Nəsiminin 650 illik yubileyinə həsr edilmiş simpozium

Türkiyənin Nevşehir Hacı Bektaş Vəli Universitetində Azərbaycanın böyük şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr edilən elmi simpozium keçirilir. “Təsəvvüf Araşdırmaları Beynəlxalq Simpoziumu” Azərbaycan Universiteti ilə birgə təşkil edilib.



Simpoziumun açılışında çıxış edən Azərbaycanın Türkiyədəki səfirliyinin birinci katibi Elçin Allahverdiyev belə tədbirlərin iki qardaş ölkə arasında elmi-mədəni münasibətlərin daha da inkişafına xidmət etdiyini vurğulayıb.

Azərbaycan Universitetinin təmsilçisi, professor Fərahim Sadıqov Nəsimi ilə bağlı təsəvvüf simpoziumunun təşkil edilməsini mühüm hadisə adlandırıb.

Hacı Bektaş Vəli Universitetinin rektoru, professor Mazhar Bağlı qonaqları salamlayaraq vurğulayıb ki, Nəsimi ilə bağlı simpoziumun Hacı Bektaş Vəli yurdunda keçirilməsinin mənəvi dəyəri var.

Sonra tədbir panel müzakirələri ilə davam etdirilib.

Simpozium sentyabrın 11-də başa çatacaq.

# Qısa filmlərin “Qızıl nar” uğrunda növbəti yarışması

Noyabrın 6-dan 9-dək 10-cu Bakı Beynəlxalq Qısa Filmlər Festivalı təşkil ediləcək.

“Sinema” Gənc Kinematoqrafçılar Mərkəzinin təsis etdiyi festival Mədəniyyət Nazirliyi, Gənclər və İdman Nazirliyi, Gənclər Fondu və Azərbaycan Prodüserlər Gildiyasının təşkilati dəstəyi ilə keçiriləcək.

Beynəlxalq festival 35 yaşına kimi olan rejissorların maksimum 35 dəqiqəlik qısametrajlı filmlərinin müsabiqəsini və nümayişini təşkil edir. Həm yerli, həm də əcnəbi kinematoqrafçıların qatıldığı kinoforumun proqramı beynəlxalq, yerli, “Cinemobil” müsabiqə bölmələri, ustad dərslərindən ibarət olacaq. Festival qaliblərinə “Qızıl nar” mükafatı təqdim ediləcək. Mükafat uğrunda yarışacaq filmləri yerli və xarici mütəxəssislərdən ibarət peşəkar kino xadimləri qiymətləndirəcək.

Festivalın məqsədi yerli müəllifləri stimullaşdırmaqla yanaşı, onları dünya praktikası, yeni tendensiyalarla tanış etmək, yaradıcılıq müzakirələri üçün peşəkar ortam yaratmaqdır.

# “Qız qalası. Qadın olmaq”

## Bakıda müasir incəsənət festivalı keçiriləcək

*əvvəli səh. 1-də*

Festivala Avstriya, Almaniya, Hollandiya, İsveç, İsveçrə, Macarıstan kimi AB-yə üzv ölkələr, eyni zamanda Gürcüstan, Moldova, Ukrayna kimi “Şərq tərəfdaşlığı”na üzv ölkələr və İran, İsrail, Türkiyə kimi qeyri-üzv ölkələrdən sənət xadimləri, muzey sahəsində çalışanlar, kurator və rəssamlar qatılacaq.

Festivalın beynəlxalq və yerli iştirakçıları, dövlət strukturları və institutlar gender bərabərliyi mövzusunda öz şəxsi və professional təcrübələrinə əsaslanaraq müzakirələr və fikir mübadiləsi aparacaqlar.




“Qız qalası. Qadın olmaq” festivalının təşkilatçı və iştirakçılarının ortaq məqsədi müasir incəsənət prizmasından gender bərabərliyi məsələlərinin inkişafına dair fikir və düşüncələrini əks etdirir, eləcə də dünya ictimaiyyətində qadınların güclənməsinin vacibliyi və bu mövzunun ən aktual suallarına cavab vermək məqsədi daşıyır.

Layihə Əməkdar rəssam Sabina Şıxlinskayanın ilkin təşəbbüs və kuratorluğu altında keçirilir. “Qız qalası. Qadın olmaq” beynəlxalq festivalı Bakıda yerləşən diplomatik nümayəndəliklərlə yanaşı, Azərbaycanın sənət və mədəniyyət aləminin müvafiq qurumları və dövlət strukturları, eləcə də digər təşkilatların birgə tərəfdaşlığı altında gerçəkləşəcək.

Bu tədbir “İMAGİNE-Avro Tolerantlıq” festivalı və “Fantaziya” Mədəni İrs festivalından sonra ölkəmizdəki Avropa Birliyinin nümayəndəliyi tərəfindən maliyyələşdirilən və Avropa dəyərlərini və prinsiplərini təbliğ edən üçüncü böyük festivaldır. Qeyd edək ki, Avropa Birliyinin sponsorluğu ilə növbəti “Fantaziya” festivalı noyabrın 1-dən 15-dək keçiriləcək.

**LALƏ**

# Xalq rəssamı Əşrəf Heybətovun Şəkidə sərgisi

Şəki şəhərindəki Heydər Əliyev Mərkəzində Almaniyada yaşayan həmyerlimiz, Xalq rəssamı, UNESCO Beynəlxalq Rəssamlar Federasiyasının üzvü Əşrəf Heybətovun “Ekspress” adlı sərgisi açılıb.





Sərginin açılış mərasimində Şəki Şəhər İcra Hakimiyyəti başçısının müavini Zərinə Cavadova və Azərbaycan Rəssamlar İttifaqı Şəki bölməsinin rəhbəri Tahir Həmidli çıxış edərək, rəssamın yaradıcılığı və fəaliyyəti barədə məlumat veriblər.

Bildirilib ki, Əşrəf Heybətovun əsərlərinin əsas mövzusu doğma Azərbaycanla bağlıdır. Rəssamın indiyədək dünyanın bir çox ölkələrində fərdi sərgiləri təşkil edilib. Əşrəf Heybətov, eyni zamanda Rusiya Rəssamlıq Akademiyasının, Azərbaycan Rəssamlar İttifaqının, Qərbi Avropa Elm və Mədəniyyət Akademiyasının üzvüdür.

Xalq rəssamı çıxışında Şəkini çox sevdiyini vurğulayaraq, sərginin təşkilinə göstərdikləri dəstəyə görə şəhər İcra Hakimiyyətinin və Şəki Regional Mədəniyyət İdarəsinin rəhbərliyinə minnətdarlığını bildirib.

Sərgidən əvvəl Əşrəf Heybətov “Yuxarı Karvansara” mehmanxana kompleksinin həyətində Şəkinin gənc rəssamları üçün ustad dərsləri də təşkil edib.

# Yeddi böyük ozandan biri

Azərbaycan əsilli müğənni və bəstəkar Sami Yusufun mütəfəkkir şair İmadəddin Nəsiminin “Sığmazam” qəzəlinin əsasında hazırladığı kompozisiya internetdə geniş izləyici auditoriyasında xoş təəssürat doğurub.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov öz təəssüratını “Facebook” sosial şəbəkəsində paylaşdığı statusda qeyd edib.

Professor Əli Həsənov diqqətə çatdırıb ki, əlli il öncə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin (1369-1417) 600 illik yubileyi keçirilmiş, bununla həm ölkəmizdə, həm də xaricdə onun həyat və yaradıcılığına maraq artmışdı. Ana dilimizdə yaratmış olduğu mükəmməl poeziya nümunələri yüz illər boyunca ozanların, muğam ustalarının dilindən düşməyərək milli mədəniyyətimizin inkişafına misilsiz töhfələr verən qüdrətli sufi şairin əlyazmalarının tədqiqi həmin vaxtdan etibarən genişlənmiş, əsərləri kütləvi tirajla çap edilmişdi. Təsadüfi deyil ki, İmadəddin Nəsiminin təbliğində xüsusi yeri olan film də məhz ulu öndər Heydər Əliyevin sovet Azərbaycanında hakimiyyətdə olduğu zamanda – İsa Hüseynovun (Muğanna) ssenarisi əsasında rejissor Həsən Seyidbəyli tərəfindən 1973-cü ildə çəkilmiş, baş rolun ifaçısı, o dövrdə gənc olan istedadlı aktyorumuz Rasim Balayevin yaratdığı obraz xalqımız tərəfindən böyük sevgi ilə qarşılanmışdı.

Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi onu da xatırladır ki, dövlət başçısı İlham Əliyevin 2004-cü il yanvarın 12-də imzaladığı “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” sərəncama əsasən Nəsiminin əsərləri də təkrar çap olunmuşdu. Vurğulanır ki, ölkə başçısı tərəfindən 2019-cu ilin “Nəsimi ili” elan edilməsi ilə bağlı çoxsaylı elmi və mədəni tədbirlər keçirilir, araşdırmalar aparılır, kütləvi informasiya vasitələrində sanballı məqalələr dərc olunmaqdadır.

Həmçinin diqqətə çatdırılır ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə bir gündə respublikamızda 650 min ağac əkiləcək. Böyük şairin dünya əhəmiyyətli poeziyasının beynəlxalq aləmdə təbliği, xatirəsinin əbədiləşdirilməsi, Azərbaycanın ədəbi və mədəni irsinin tanıdılması məqsədi daşıyan bu nəcib təşəbbüsə respublikamızın bütün bölgələrində ictimaiyyət nümayəndələri, dövlət və hökumət qurumlarının, diplomatik korpusun, icra hakimiyyətləri orqanlarının, qeyri-hökumət təşkilatlarının təmsilçiləri və könüllü gənclər qoşulacaqlar.

“Zənnimcə, “Nəsimi ili”nə gözəl töhfələrdən birini də “Youtube” kanalındakı hesabına yerləşdirdiyi son bəstəsi ilə soydaşımız, Azərbaycan əsilli Britaniya sənətçisi Sami Yusuf verdi. Onun “Şur” muğamının ladları üzərində gəzişərək ərsəyə gətirdiyi “Nəsimi” kompozisiyası sosial şəbəkələrdə qısa zamanda populyarlaşdı və böyük rəğbətlə qarşılandı. Müntəzəm olaraq Azərbaycana gələn, ötən ilin sentyabrında Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə gerçəkləşən Nəsimi - şeir, incəsənət və mənəviyyat festivalında iştirak etmiş Sami kimi məşhur, açıq konsertlərinə yüz minlərlə tamaşaçı toplanan bir sənətçinin klassik poeziyamızın pərəstişkarı olması, mənəvi dünyamızın incilərini yeni və peşəkar formada bütün dünyaya yayması, əlbəttə, təqdirəlayiqdir”, – deyə Əli Həsənov qeyd edir.

Professor Əli Həsənov müğənni və bəstəkar Sami Yusufun Nəsiminin “Sığmazam” qəzəli əsasında xalq çalğı alətlərimizin müşayiəti ilə, milli, klassik və müasir musiqi elementlərini sintez edərək, Azərbaycanın ifaçıları ilə birgə hazırladığı kompozisiyanın videoyazısını internet istifadəçiləri ilə paylaşaraq yazır: “Bir dinləyici kimi zövqümü oxşadı. Odur ki, türk dünyasının 7 böyük ozanından biri sayılan Nəsiminin “Sığmazam” rədifli qəzəlinin bu cür ecazkar, ovsunlayıcı musiqiyə çevrilməsinə əmək sərf etmiş hər kəsə təşəkkür edir, böyük məmnuniyyətlə videosunu sizlərlə paylaşıram. Paylaşıram həm də ona görə ki, Heydər Əliyevin və İlham Əliyevin Nəsimi kimi tarixi şəxsiyyətlərimizi, mütəfəkkirlərimizi cəmiyyətimizin və bütün dünyanın nəzərində ucaltmaqla standart məkan qəliblərinə sığmadıqları barədə qənaətimi bir daha sizlərlə bölüşüm”.

# Qardaş ölkənin bayramı

Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində Özbəkistanın dövlət müstəqilliyinin 28-ci ildönümünə həsr olunmuş mərasim keçirilib.



Qonaqlar AMM-in foyesində Daşkənd Dövlət Pedaqoji Universitetinin (DDPU) Rəssamlıq fakültəsinin tələbələri tərəfindən çəkilmiş və “İstiqlaliyyətin 28-ci ili mübarək, Özbəkistan” adlı sərgi ilə tanış olublar.

Tədbir hər iki ölkənin dövlət himnlərinin səsləndirilməsi ilə başlanıb, Azərbaycan-Özbəkistan dostluğuna, habelə Özbəkistanın əldə etdiyi nailiyyətlərə dair videoçarx nümayiş olunub.

Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev bayram münasibətilə özbək xalqını təbrik edib, ölkələrimiz arasındakı əlaqələrin milli-mənəvi və mədəni dəyərlərlə bir-birinə sıx bağlı olduğunu qeyd edib.

Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyətinin icraçı direktoru, professor Erkin Nuriddinov Özbəkistanın dövlət müstəqilliyinin Azərbaycan Mədəniyyət Mərkəzində qeyd olunmasının xüsusi önəm kəsb etdiyini, bunun bir daha dostluğumuzun, qardaşlığımızın göstəricisi olduğunu deyib.

DDPU-nin tələbələri şeirlər söyləyiblər.

Daha sonra AMM-in rəqs ansamblı milli rəqslərimizi, Özbəkistanın dünya şöhrətli “Özbək gəncləri” musiqi ansamblı isə hər iki xalqın rəqs və musiqilərini ifa edib.

# Gənc Tamaşaçılar Teatrı mövsümü “Qızıl balıq”la açacaq

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı yeni mövsümü sentyabrın 21-də rus şairi A.Puşkinin “Balıqçı və balığın nağılı” əsərinin motivləri əsasında yazıçı Pərvinin qələmə aldığı pyesin tamaşası ilə açacaq.

Teatrdan bildirilib ki, “Qızıl balıq” tamaşasının quruluşçu rejissoru Elşad Rəhimzadədir. Səhnə tərtibatı Reyhan Aslanova və Şahin Hüseynliyə aiddir. Rolları əməkdar artistlər Elnur Hüseynov, Zemfira Əbdülsəmədova, aktyorlar Ədalət Əbdülsəmədov, Nuriyə Əliyeva, Asya Atakişiyeva, İlahə Əmirxanova, İmran Qurbanov, Nuranə Hüseynova, Könül Əbilova, Xaliq Bəkirov və Nurlan Süleymanlı canlandıracaq.

# Maestro Yalçın Adıgözəlovun Odessada konserti

Xalq artisti, tanınmış dirijor Yalçın Adıgözəlov Ukraynanın Odessa şəhərində konserti idarə edib. Odessa Opera və Balet Teatrında təqdim olunan konsert şəhərin yaranmasının 225 illiyi və "Odessa operasının məxmər mövsümü" 5-ci festivalı çərçivəsində keçirilib.



Maestro Y.Adıgözəlovun idarəsi ilə orkestrin ifasında italyan bəstəkarı Cakomo Puççininin "Madam Batterfli" operası səsləndirilib. Əsərin baş qəhrəmanları isə Ukraynanın tanınmış opera müğənniləri olublar.

Azərbaycan diasporu fəallarının da izlədiyi konsert maraqla qarşılanıb və tamaşaçıların alqışına səbəb olub.

# "Sülh aylığı" çərçivəsində tədbir

Bərdə Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə Bərdə rayon Heydər Əliyev Mərkəzində "Sülh aylığı" çərçivəsində "Qoy həmişə sülh olsun!" adlı tədbir keçirilib.



Regional idarənin rəis müavini Validə Nabatova qeyd edib ki, hər il 21 sentyabr – Beynəlxalq Sülh Günü ərəfəsində respublikamızda "Sülh aylığı" (avqustun 21-dən sentyabrın 21-dək) elan edilir. Bildirilib ki, dünyanın ən tolerant ölkələrindən olan Azərbaycana vətəndaşların, xalqımızın da ən böyük arzu və istəyi sülh və əmin-amanlıq şəraitində yaşamaqdır.

# "Sehrli Bakı"da Azərbaycan və dünya rəqsləri

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Fəvvarələr meydanında "Sehrli Bakı" layihəsi çərçivəsində növbəti konsert proqramı təqdim edilib.



Konsertdə rəngarəng rəqslər ifa olunub. Bakı sakinləri və şəhərin qonaqları Kəmalə Səfərəliyevanın ifasında "Şam" rəqsini izləyiblər.

Sonra meydan "Səma" rəqs qrupunun üzvlərinə verilib. Azərbaycanı beynəlxalq festivallarda layiqincə təmsil edən kollektiv tamaşaçılara "Sarı gəlin" kompozisiyasını, "Qaytağı", "Çobanlar", həmçinin hind, özbək, tatar, ərəb rəqslərini ifa ediblər. Konsertin əsas nömrəsi isə gənc rəqqasların ifa etdikləri "Azərbaycan süitası" rəqsi olub.

Tamaşaçıların həftəsonu istirahətini mənalı təşkil etmək, onların musiqi zövqünü peşəkar musiqi ilə zənginləşdirmək məqsədi daşıyan "Sehrli Bakı" layihəsi çərçivəsində konsertlər sentyabrın 30-dək hər həftəsonu davam edəcək.

# Füzuli teatrı Şəkidə

Füzuli Dövlət Dram Teatrı N saylı hərbi birləşmə, 2016-cı il Aprel döyüşlərinin qaziləri və bir qrup xeyriyyəçi şəxslərin təşkilati dəstəyi ilə Şəki şəhər qarışıq tipli uşaq evində "Dünyanın çiçəkləri" adlı şou-proqramla çıxış edib.



Proqramda cizgi filmi və nağıl qəhrəmanlarının maraqlı sərgüzəştləri, aktyorların ifasında uşaqlara həsr olunmuş şeir və mahnılar, rəqslər uşaqlar tərəfindən böyük maraqla qarşılanıb.

# "Sınıq körpü"də təmir-bərpa işləri ilin sonunadək başa çatdırılacaq

Bərpasına ötən ilin sonlarında başlanılan "Sınıq körpü"də (Qırmızı körpü) müəyyən işlər artıq yekunlaşmaq üzrədir. Azərbaycanın Gürcüstanla dövlət sərhədində yerləşən tarixi abidədə aparılan təmir-bərpa işlərinin bu ilin sonunadək başa çatdırılması nəzərdə tutulur.



Bu barədə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətindən məlumat veriblər.

Ötən müddətdə körpüdə olan karvansaraların, tağların bərpası həyata keçirilib, körpünün istinad divarları möhkəmləndirilib. Bərpa işlərində abidənin tarixi görkəminin qorunmasına xüsusi diqqət yetirilib. Abidənin üzəri tarixi görkəminə qaytarılıb.

Hazırda körpünün uçmuş tağında bərpa işləri başa çatmaq üzrədir. Bundan başqa, körpünün üstü, yanları, karvansarası artıq torpaq qatından təmizlənib, körpünün fasadında, parapetində və üst örtüyündə bərpa işlərinə başlanılıb. Körpüdə nəzərdə tutulan bərpa işlərinin ilin sonuna kimi başa çatdırılması planlaşdırılır. Bərpa işləri başa çatdıqdan sonra körpüdən piyadaların keçidi üçün istifadə olunacaq.

Qeyd edək ki, abidənin bərpa və konservasiya layihəsi "Azərbərpa" Elmi Tədqiqat Layihə İnstitutu tərəfindən hazırlanıb. "Sınıq körpü" XII əsrdə Azərbaycan memarları tərəfindən inşa olunub. Tikilinin uzunluğu 175 metrdir və 4 aşırımdan ibarətdir. Körpünün sağ və sol sahillərində karvansara kimi istifadə olunan geniş yerlər tikilib. Sol tərəfdəki karvansaranın sahəsi 116, sağ tərəfdəkinin isə 166 kvadratmetrdir.

**FARİZ**

# Moskva Beynəlxalq Kitab Sərgi-Yarmarkasında işgüzar görüşlər

Xəbər verdiyimiz kimi, sentyabrın 4-dən 8-dək Moskvada keçirilən 32-ci Beynəlxalq Kitab Sərgi-Yarmarkasında Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə ölkəmiz də təmsil olunub. Azərbaycan stendində 200 adda, 400 nüsxədən çox kitab nümayiş olunub. Mədəniyyət Nazirliyi ilə yanaşı, "Azərnəşr" və "Şərq-Qərb" nəşriyyatları, "Azərkitab" kitab ticarəti mərkəzi də sərgidə iştirak edib.



36 kvadratmetr sahədə, xüsusi dizaynda qurulmuş stendimiz sərgi-yarmarkanın iştirakçı və qonaqları tərəfindən maraqla qarşılanıb. Sərgi-yarmarka müddətində bir sıra görüşlər keçirilib.

Rusiya Federasiyasının Mətbuat və Kütləvi Kommunikasiyalar üzrə Federal Agentliyinin Kitab sərgiləri və mütaliənin təbliği şöbəsinin müdiri Aleksandr Voropayev stendimizi ziyarət edib. Kitablarımızla tanış olan A.Voropayev milli ekspozisiya haqqında yüksək fikirlər bildirərək uğurlar arzu edib. Söhbət zamanı qarşılıqlı olaraq Bakı və Moskva kitab sərgilərində ölkələrimizin daha geniş şəkildə iştirak imkanları müzakirə edilib.

32-ci Moskva Beynəlxalq Kitab Sərgi-Yarmarkasının fəxri qonaq ölkəsi olan Belarus Respublikasının İnformasiya naziri Ales Karlyukeviç də Azərbaycan stendinə baş çəkib. Təqdim olunan nəşrlərə baxan nazir ölkəmizdə kitab sənətinin yüksək səviyyədə olduğunu bildirib. İki ölkə arasında mümkün nəşr layihələri, qarşılıqlı olaraq Bakı və Minsk kitab sərgilərində iştirakın genişləndirilməsi və s. barədə fikir mübadiləsi aparılıb.

Belaruslu nazir Azərbaycanın Minsk kitab sərgisində fəxri qonaq ölkə kimi iştirakından məmnun olacaqlarını söyləyib. Qonağa bu il MDB-nin "Kitab sənəti" Beynəlxalq müsabiqəsinin ən yüksək mükafatını – "Qran-Pri"ni qazanmış nəşr – Nizami Gəncəvinin "Xosrov və Şirin" kitabı və digər nəşrlər hədiyyə edilib.

# Kitablarımız Tacikistanda nümayiş olunub

Tacikistan Milli Kitabxanasında beynəlxalq kitab sərgisi keçirilib. Sərgidə Tacikistanda fəaliyyət göstərən səfirliklər və ölkənin nəşriyyatları təmsil olunub.

Azərbaycanın Tacikistandakı səfirliyi də sərgiyə qatılıb.

Səfirliyimiz üçün ayrılmış guşədə ümummilli lider Heydər Əliyevin, Prezident İlham Əliyevin həyat və fəaliyyəti ilə bağlı nəşrlər, Xalq yazıçısı Elmira Axundovanın tacik dilində çap olunan "Heydər Əliyev. Şəxsiyyət və Zaman", Nikolay Zinkoviçin "Həyatın keşməkeşləri" kitabları nümayiş etdirilib.

Guşədə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin kitabları, Nizami Gəncəvinin "Xəmsə"si, ölkəmizin tarixi, mədəniyyəti, incəsənəti, həmçinin "Azərbaycan xalçaları" silsiləsindən nəşrlər də yer alıb.

# Xalq yazıçısı Anara dombra hədiyyə edilib

Xəbər verdiyimiz kimi, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar Qazaxıstanda səfərdə olub, Nur-Sultan şəhərində keçirilən Asiya Ölkələri Yazıçılarının I Forumunda iştirak edib.

Səfər zamanı Qazaxıstan Milli Akademik Kitabxanasında ölkə ictimaiyyəti, diaspor üzvləri ilə yazıçının görüşü keçirilib.

Görüşdə Azərbaycanın Qazaxıstandakı səfiri Rəşad Məmmədov çıxış edərək ölkəsinin tanınmış şəxsiyyətləri ilə qürur duyduğunu bildirib. Səfir belə şəxsiyyətlərdən olan Xalq yazıçısı Anarın öz yaradıcılığı ilə Azərbaycan və türk xalqlarının ədəbiyyatına, eləcə də dünya ədəbiyyatına töhfələr verdiyini deyib.

Qazaxıstan yazıçıları Joltay Almasulı, Baxıqoca Rustəmov və Dariya Jumageldinova Anarın əsərlərinin dünyanın bir sıra dillərinə, o cümlədən qazax dilinə tərcümə edildiyini bildiriblər.

Baxıtqoca Rüstəmov "Dombrasız qazax, əsl qazax deyil" el misalını söyləyərək yazıçıya milli xalq çalğı alətini hədiyyə edib.

Görüşdə Anar bildirib ki, böyük türk dünyasının bir parçası sayılan Qazaxıstan repressiya zamanı həmvətənlilərimizin sığınacaq yeri olub. Qazax xalqı Abay, Çokan Vəlixanov, Oljas Süleymenov kimi böyük şəxsiyyətlər yetişdirib. Hər zaman Azərbaycanda Qazaxıstan mədəniyyətinə xüsusi maraq olub.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən bəhs edən Xalq yazıçısı beynəlxalq ictimai-siyasi forumlarda Qazaxıstanın ədalətli mövqe nümayiş etdirməsini xüsusilə vurğulayıb.



Tədbirdə çıxış edənlər yazıçını canlı klassik adlandırıb, onun əsərlərinin hər zaman aktual olacağını söyləyiblər.

Görüşdə Anarın ssenarisi əsasında lentə alınan və Azərbaycan kinosunun "qızıl fondu"na daxil edilmiş "Gün keçdi" filminin bu il qazax dilində Azərbaycan kinosu həftəsi çərçivəsində yerli kanalda nümayiş olunduğu və maraqla izləndiyi vurğulanıb. Sonra Anar gənc yazarlar, milli kitabxananın əməkdaşları və oxucuların suallarını cavablandırıb.

Tədbir iştirakçıları yazıçı ilə xatirə şəkli çəkdiriblər.

Kitabxanada Azərbaycana aid kitablarla yanaşı, Xalq yazıçısının da əsərləri nümayiş olunub.

# Yubilyarlara həsr olunmuş sərgilər

Sentyabrın 5-də Milli Kitabxanada Əməkdar incəsənət xadimi, şair, dramaturq, publisist, tərcüməçi, ictimai xadim Hidayət Orucovun anadan olmasının 75 illiyi münasibətilə kitab sərgisi açılıb.

Sərgidə müəllifin ədəbiyyat, kitab mədəniyyəti məsələləri, millətlərarası münasibətlər, din, milli-mənəvi dəyərlərimiz, türk xalqlarının deportasiyası və soyqırımına həsr olunmuş Azərbaycan, rus və digər dillərdə çap edilən əsərləri, tərtib etdiyi, rəyçisi, redaktoru olduğu və haqqında yazılan kitablar və dövri mətbuat materialları nümayiş olunur.

Sentyabrın 8-də tanınmış sənətşünas alim, teatrşünas-tənqidçi, Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor İlham Rəhimlinin 70 yaşı tamam olub. Bu münasibətlə Milli Kitabxanada "İlham Rəhimli 70" adlı kitab sərgisi təşkil edilib.

Sərgidə müəllifin əsərləri, redaktoru olduğu, ön söz yazdığı kitablar və dövri mətbuat materialları yer alıb.

# Qazaxıstan Milli Akademik Kitabxanası Bakı sərgisinə qatılacaq

Qazaxıstan Milli Akademik Kitabxanası 27-29 sentyabr tarixində keçiriləcək VI Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasında iştirak edəcək.

Bu barədə məlumat verən kitabxananın direktor müavini Aliya Kojabekova bildirib ki, sərgi çərçivəsində Qazaxıstan Mədəniyyəti və ədəbiyyatı mərkəzinin açılışının, eləcə də Qazaxıstan ədəbiyyatının klassiki Abiş Kekilbayevin ingilis və fransız dillərinə tərcümə edilmiş kitabının təqdimatının keçirilməsi nəzərdə tutulub.

Aliya Kojabekova Qazaxıstan Milli Akademik Kitabxanasının Azərbaycan Milli Kitabxanası ilə sıx əməkdaşlıq etdiyini də bildirib.

# İsmayıllı rayonunda antropoloji ekspedisiya

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Arxeologiya və Etnoqrafiya İnstitutunun Antropologiya Mərkəzinin əməkdaşları "Şahdağ qrupu"na daxil olan xalqların müasir etnomədəni və etnososial durumunu tədqiq edirlər.



İnstitutdan bildiriblər ki, avqust ayında mərkəzin direktoru, antropologiya elmləri doktoru Əliağa Məmmədlinin rəhbərliyi ilə İsmayıllı rayonunda "Şahdağ qrupu"na daxil olan hapıtlar haqqında məlumat toplanılıb.

İsmayıllı rayonunun Mollaisaqlı və Hacıhətəmli kəndlərində kompakt şəkildə yaşayan hapıtlar vaxtilə Quba rayonunun Hapıt kəndindən köçüb gəliblər. İsmayıllı rayonunda Hapıtlı kəndi də mövcuddur. Aparılan araşdırmalar göstərdi ki, bu kəndin əhalisi "azərbaycanlı" kimliyi ilə özünü dərk edir və sakinlər arasında ünsiyyət əsasən Azərbaycan dilindədir.

Ekspedisiyanın əsas məqsədi polietnik ərazilərdə yaşayan azsaylı etnik qruplar arasında müasir etnomədəni və etnososial proseslərin öyrənilməsidir. Hapıtlar arasında aparılan müşahidələr, sorğular, müsahibələr zamanı əsas diqqət etnik identiklik (kimlik), tarixi yaddaş, ana dilinin funksionallığı, qonşu etnik qruplarla qarşılıqlı münasibət kimi problemlərə, iqtisadi və sosial amillərin gündəlik həyata təsiri məsələlərinə yönəlib. Məsələn, hapıtlar arasında etnik identikliyi araşdırarkən maraqlı proseslər müşahidə olunur. Hapıt dili Şimali Qafqaz dillər ailəsinin Nax-Dağıstan qrupunun ləzgi yarımqrupuna aiddir. Bəzi tədqiqatçılar hesab edirlər ki, bu dil qrız dilinin bir dialektidir. Onların fikrincə, bu dialektlər arasında həm də Əlik və Cek kəndlərinin sakinlərinin danışdığı dillər yer alır. Ekspedisiya zamanı qeyd olunan kəndlərdə aparılan sorğular və müsahibələr bu dillərin, həqiqətən də, qohumluq əlaqələrində olduğunu və bu kəndlərin sakinlərinin bir-birini anlamalarını təsdiq edir. Lakin dil baxımından yaxın olan bu icmaların nümayəndələri özlərini vahid etnik birliyə aid etmirlər. Yəni etnik identiklik baxımından hapıtlar özlərini qrızlardan fərqli etnosa aid edirlər. Öz adət-ənənələri, davranış qaydaları, tarixi şəxsiyyətləri haqqında məlumat verərkən onlar etnik identikliklərini doğma kəndləri ilə əlaqələndirirlər.

Hapıtlar tarixən müxtəlif səbəblərdən aran bölgələrə köçərək məskən salmış və hazırda İsmayıllı, Qəbələ, Ağdaş rayonlarında bir neçə kəndin əsasını qoymuşlar. Bu kəndlərin çoxunun sakinləri etnik mənsubiyyətlərini hapıt kimi müəyyən edirlər. Hətta qarışıq etnik mühitdə yaşayan şəhər sakinləri olan hapıtlar etnik identikliklərini qoruyub saxlayırlar.

Toplanan məlumatlar və aparılan təhlillər qrızları və hapıtları eyni etnosa aid etməyə əsas vermir. Aydın məsələdir ki, əgər hər hansı sosial qrupun üzvləri özlərini müəyyən adla adlandırırsa və bu qrup daxilində həmrəylik prinsipi əsasında özünüdərketmə mövcuddursa, bu qrupu başqa eyni formada təşkil olunmuş qrupla eyniləşdirmək düzgün deyil.

Araşdırmalar göstərir ki, etnik qrupların nümayəndələrinin böyük bir hissəsində müəyyən dərəcədə mürəkkəb strukturlu etnik identiklik müşahidə olunur. Bu, tədqiqata cəlb olunmuş hapıtlara da aiddir.

# Tağıyevin heykəli Xanlar Əhmədovun layihəsi əsasında hazırlanacaq

Böyük mesenat, Azərbaycanda mədəniyyət və maarifçiliyin inkişafına mühüm töhfələr vermiş neft milyonçusu Hacı Zeynalabdin Tağıyevin Bakı şəhərində ucaldılacaq heykəlinin hazırlanması ilə bağlı müsabiqədə qalib məlum olub. Tağıyevin abidəsi tanınmış heykəltəraş, Xalq rəssamı Xanlar Əhmədovun layihəsi əsasında hazırlanacaq.



Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyətinin keçirdiyi açıq heykəltəraşlıq müsabiqəsinin münsiflər heyətinin qərarına əsasən, təqdim olunan 26 layihə arasından Xanlar Əhmədovun layihəsi qalib seçilib.

Hacı Zeynalabdin Tağıyevin heykəli "İçərişəhər" metro stansiyasının yaxınlığındakı meydançada (İstiqlaliyyət küçəsi) ucaldılacaq.

Qeyd edək ki, Xanlar Əhmədov 1961-1966-cı illərdə Əzim Əzimzadə adına Rəssamlıq məktəbində, 1966-1972-ci illərdə A.Ostrovski adına Daşkənd Teatr İncəsənəti İnstitutunda təhsil alıb, 1972-1975-ci illərdə SSRİ Rəssamlıq Akademiyasının aspirantı olub. 1975-ci ildən SSRİ Rəssamlar İttifaqına üzv qəbul edilib.

2002-ci ildə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə "Əməkdar rəssam" fəxri adına, 2006-cı ildə isə Azərbaycan təsviri incəsənətinin inkişafındakı xidmətlərinə görə "Xalq rəssamı" fəxri adına layiq görülüb.

O, dəzgah və monumental heykəltəraşlıq sahəsində çalışır. Bir sıra icra olunmuş monumental layihələrin, "Azadlıq prospekti" metro stansiyasında böyük həcmli relyef əsərlərinin müəllifidir. Xocalı faciəsini əks etdirən silsilə əsərlər yaradıb. Əl işləri Almaniya, Fransa, Polşa, Rusiya, Türkiyə və digər ölkələrdə nümayiş etdirilib, muzey və şəxsi kolleksiyalarda saxlanılır.

Xalq rəssamı mediaya açıqlamasında bildirib ki, Tağıyevin abidəsi ilə bağlı hələ on il əvvəl eskizlər hazırlayıbmış. Müsabiqə üçün layihə işləyərkən onlardan da istifadə edib. O, müsabiqəyə üç formada heykəl variantı təqdim edib: Tağıyev oturan yerdə, ayaq üstə və faytonda. Nəticədə Tağıyevin ayaq üstə olduğu variant seçilib.

Heykəltəraş bildirib ki, Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyətində məsul şəxslərlə görüşdən sonra heykəlin hazırlanmasına başlanılacaq. O, heykəlin tuncdan, postamentin isə qara qranitlə qırmızı qranitin qarışığından olacağını deyib. Heykəlin 3-3,5 metr, pyedestalın isə 1-1,5 metr hündürlükdə olması nəzərdə tutulur.

# Dirijor Fuad İbrahimov "Kremerata Baltika 2019" festivalında

Sentyabrın 6-da Latviyanın Yurmala şəhərində "Kremerata Baltika 2019" festivalının açılış mərasimi olub.

Tanınmış musiqiçi Gidon Kremerin rəhbərlik etdiyi mötəbər klassik musiqi festivalının qonaqları sırasında azərbaycanlı dirijor, Əməkdar artist Fuad İbrahimov da var. Festivalın konsertlərinə dirijorluq edən həmyerlimiz Latviya telekanallarına müsahibəsində Azərbaycan musiqisi haqqında da məlumat verib.



Qeyd edək ki, dirijor və violin ifaçısı Gidon Kremer "Kremerata Baltika" orkestrinin və eyniadlı festivalın yaradıcısıdır. Festival 1997-ci ildən keçirilir. Üç gün davam edən budəfəki festivala da tanınmış musiqiçilər qatılıb. Festivalın "Şərq sərhədi" adlanan ilk konserti rumın və çex bəstəkarlarının yaradıcılığına həsr edilib. Sonrakı günlərdə isə İ.S.Bax və latış bəstəkarların əsərləri səsləndirilib. Festivalın bağlanış günü M.Vaynberqin 100 illiyinə həsr olunmuş proqram təqdim olunub.

Bütün konsertlərə Fuad İbrahimov dirijorluq edib. Qeyd edək ki, bu ilin dekabr ayının 13-də azərbaycanlı dirijor həmçinin Latviya Milli Simfonik Orkestri ilə çıxış edəcək.

# Yeni mövsümdə maraqlı layihələr olacaq

Beynəlxalq Muğam Mərkəzi (BMM) milli musiqi irsimizin araşdırılması və təbliği istiqamətində müxtəlif layihələr həyata keçirir. Yeni mövsümdə BMM-də "Muğam axşamları", "Unudulmayanlar", "Dəyirmi masa", "Dastan gecələri" və digər layihələrlə bərabər musiqinin müxtəlif janrlarını əhatə edən konsert proqramları da təqdim ediləcək.

"Muğam axşamları" layihəsi çərçivəsində tanınmış ifaçılar tərəfindən muğamlar, xalq mahnıları və təsniflər səsləndirilir. Muğam sənətimizin fəlsəfəsini gələcək nəsillərə çatdırmaq məqsədilə reallaşan layihəyə tamaşaçılar böyük maraq göstərir. Artıq 3-cü mərhələsi təqdim edilən konsertlərdə bu günə kimi tanınmış xanəndələrin ifasında 7 əsas muğamımız təqdim edilib.

"Unudulmayanlar" layihəsinin məqsədi milli musiqi tarixində müstəsna rol oynamış görkəmli mədəniyyət xadimlərinin, bəstəkarların, klassik musiqi tariximiz və muğam ifaçılarının həyat və yaradıcılığını təqdim etməkdir. İndiyədək layihə çərçivəsində xalq artistləri – unudulmaz ifaçılar Həqiqət Rzayeva, Bülbül, Sara Qədimova və digər sənətkarlara həsr edilmiş gecələr təşkil edilib.

Yeni mövsümün ilk "Unudulmayanlar"ı 24 sentyabrda təqdim olunacaq. Tədbirdə XIX əsrin sonu - XX əsrin əvvəlində xanəndəlik fəaliyyəti göstərmiş, daha sonra neft sahibkarı olmuş Seyid Mirbabayevin xatirəsi yad ediləcək. Yeni mövsümün ilk konsertlərindən biri XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı çərçivəsində 18 sentyabr tarixində (muğamlarımızdan ibarət ədəbi-bədii gecə) keçiriləcək. Sentyabrın 19-da isə festival çərçivəsində "Rast" dünyası adlı konsert proqramı təqdim olunacaq.

25 sentyabrda daha bir konsert özünəməxsusluğu ilə seçiləcək. Xalq artisti, tanınmış pianoçu Murad Hüseynov və məşhur violonçel ifaçısı Veliçka Yoçevanın təqdim edəcəkləri birgə proqram festivalın gündəliyinə rəngarənglik bəxş edəcək.

Qeyd edək ki, Beynəlxalq Muğam Mərkəzi "Aşıq musiqisi" , "Etnik musiqi inciləri", "Sirlər xəzinəsi", "Qəzəllər" kimi layihələri də davam etdirməkdədir.

**LALƏ**

# Bir tar oxuyurdu –

## ustad Əhsən Dadaşov ifasında...

"Sənətdə ürək birincidir!" devizilə TARı çırpınan ürəyə çevirmiş, ali hissi qabiliyyətilə qəlblər çalmış, şipşirin, dopdolu çalğısı, san-samballı mizrabı, məna-rənalı musiqi cümlələrilə qulaqlarda ulu səs, hafizələrdə xəlqi avaz, şüurlarda cürəbəcürə rəmzlər yaratmış virtuoz sənətkar...

Bu şəxsin (gələcək şəxsiyyətin) adını atasının dayısı, sənətkarlıq dəyərini isə dahi Üzeyir bəy verib.

1937-də "xalq düşməni" adıyla repressiya qurbanı olası o ata 1924-ün sentyabrında dayısına söylədiyi "Bağışla, çox-çox üzr istəyirəm... oğlum olub!" - xəbərə bircə kəlmə eşidib:

"Əhsən!".

Ürəyi sevinclə dolu o gənc: "Gəldim məsləhətə ki, uşağın adını nə qoyaq?" deyəndə o zəhmli qoca indicə dediyi tənha sözün əvvəlinə bir kəlmə söz və bir ədat əlavə edib: "Dedim də, Əhsən!"

Elə bu adamın "debüt" sənət dəyəri, böyük təltifat tutumlu ilk tərifatı da üç kəlmədən ibarət olub: texnikumda görkəmli musiqiçilər S.Rüstəmov, Mənsur və Ənvər Mənsurovlardan dərs alan, məktəbin açıq konsertlərində mütəmadi çıxış edən Əhsən həmin tədbirlərin birində necə bir "Şur" yaradırsa, böyük Üzeyir Hacıbəylinin dilindən belə bir xeyir-dua səslənir: "Əhsən sənə, Əhsən!"...

**Ömürcə də –**

qısa – əlli iki il yaşamış doxsan beş yaşlı yubilyarın bu sənətə gəlişi haqda qeydləri də lakonik: "1938-ci ildi, səkkizinci sinifdə oxuyurdum, bir gün Musiqi Texnikumunun qarşısından keçərkən gözüm divara vurulmuş qəbul elanına sataşdı. "Tar sinfi" sözlərini oxuyanda bu sənətin görkəmli nümayəndələrinin mizrabla yaratdıqları musiqi möcüzələri barədə xəyallara daldım və sənədlərimi hazırlamaq eşqinə düşdüm. Lakin ata-anamın məni həkim görmək istəyini xatırlayıb, bir qədər tərəddüd etdim. Sonra "gizli" fəaliyyətə başladım; ailəmizdən xəbərsiz, sənədlərimi tar sinfinə verdim…"

14 yaşlı bu istedad qəbul imtahanında ustad müəllim-tarzən Ənvər Mənsurovdan bu sözləri eşidir: "Belə güclü musiqi qavramınla sən gələcəkdə ustad sənətkar olacaqsan!"

Bu ustad haqqında yazılmış kitabdan:

"...Konferansyenin incə tembrli səsi salona yayıldı:

- "Şur". Tarda çalır Musiqi Texnikumunun əlaçı tələbəsi Əhsən Dadaşov.

Yüksək zövqlü tamaşaçılardan ibarət zal sükuta qərq oldu. Məxmər pərdələr ağır-ağır qalxdı. On altı yaşlı Əhsənin səhnəyə peşəkar tarzənlərə məxsus sərbəstliklə çıxması buraya toplaşanların marağını daha da artırdı.

Ürəyi döyünə-döyünə tarı sinəsinə götürdü və neçə vaxtdı hamınınkından fərqli bu "sədəfli"si ilə ürəyində danışdığı sehr-sirri birər-birər salon əhlinə söyləməyə başladı..."

Hələ onun işə qəbul "macəra"sı!...

Bəli, görkəmli bəstəkar-dirijor Səid Rüstəmov bu parlaq istedadı rəhbərlik etdiyi xalq çalğı alətləri orkestrinə qəbul etmək istərkən bəlli olur ki, hələ onun pasport yaşı çatmayıb. Və Səid müəllim məsələyə bu sözlərilə xitam verir: "Əhsənin vətəndaşlıq pasportu olmasa da, sənətkarlıq pasportunu çoxdan alıb!…"

Atası Mirzə Ələbbasın məruz qoyulduğu "tuthatut" illəri haqda nəvəsi – Xanım Əhsən qızının xatirələrindən götürdüyümüz parça isə bir qədər geniş, bir sürə "segah"i: "Babamı həbsə gələnlərin ikisi erməni imiş. Evi alt-üst edib, kitablarını təpikləyib, nənəmin qır-qızıllarını apardılar. Qohum-əqrəbaya görüş vermirmişlər. "Peredaça"nı çatdırmaqçün anası ilə qardaşı bütün günü növbədə dayanıb geri qayıdırmışlar. Atam danışırdı ki, soyuqda-qarda da günlərlə gözləyir, bir doğru-dürüst cavab ala bilmirdik. İllər sonra öyrəniblər ki, sən demə, ataları elə ilk gündən Sibirə sürgün edilibmiş. Sonrakı taleyindənsə xəbər tuta bilməyiblər. Deyirəm, bəlkə atamın çalğılarındakı aşırı yanıqlıqlar bir az da o olaylardan yanaymış?...

Əmim deyirdi "hamını əsgərliyə aparırdılar, biz iki qardaşı "xalq düşməni" övladları olduğumuzçün çağırmırdılar". Lakin 1943-cü ildə onları da aparırlar. Cəbhəyə yox, Mahaçqala fəhlə batalyonuna. Ağır işlər, çətin şərait atamın sağlamlığına pis təsir göstərir. Çox ağır xəstələnir. Batalyon həkimi Aşurbəyov onu Bakıya yazır. Burada müalicə olunub sağalır və yenidən S.Rüstəmov onu orkestrə qəbul edir. Qardaşı isə Bakıya bərk yaralı dönür".

**İllər ötəcək –**

o (F.Əmirovla Ə.Əlibəylinin təşəbbüsü ilə) Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsinin Xalq çalğı alətləri ansamblını yaradıb, ömrünün sonunadək rəhbəri olacaq. "Zirvə solist", "dirijor-müşayiətçi, orkestr ifaçısı", "tükənməz fantaziya", "etalon orientasiya", "imzasız bəstəçi" "heyrətamiz təmkin", "dolğun mizrab" (hələ "dil"ini yalnız peşəkarların bildiyi Əhsənəməxsus "lal barmaqlar", "xun" və s.) kimi şöhrət notları daxili və (Rəşid Behbudovun ansamblının üzvü kimi) xarici sənət aləmlərinə yayılacaq. Büsbütün özünəməxsusluqla ifa etdiyi, "sehri-barmaqlar"ı ilə hər birində yeni xallar vurduğu, "təzə çalarlar" əlavə etdiyi "Rast", "Orta Mahur", "Şur", "Zabul-Segah", "Humayun", "Vilayəti-Dilkeş", "Çahargah", "Bayatı-Şiraz" muğamları teleradionun "qızıl fond"unda saxlanılacaq. Daha sonralar məşhur pedaqoq kimi tanınacaq, Bülbül adına Orta İxtisas Musiqi Məktəbində "qızıl barmaqlı tarzən, özəl-gözəl nitqli müəllim" sifətilə dəyərləndiriləcək. Bəstəkar H.Xanməmmədov tar ilə simfonik orkestr üçün yazdığı ilk (Şərqdə də ilk) konserti ona ithaf edəcək və bu maraqlı əsərin ilk ifaçısı Əhsən Dadaşov özü olacaq. Ömrünün sonunadək bədii rəhbəri olduğu ansambl vəfatından sonra, ustadın xatirəsinə sayğı əlaməti olaraq, Əhsən Dadaşov adına "Xatirə" Xalq çalğı alətləri ansamblı kimi fəaliyyət göstərəcək...

Və dünya şöhrətli bəstəkarımız Fikrət Əmirov deyəcək: "Əhsən Dadaşovun yaratdığı Xalq çalğı alətləri ansamblının repertuarı öz rəngarəngliyinə, yüksək temperament və ifaçılıq texnikasına görə başqa ansambllardan fərqlənir. Nə xoş və nə milli fəxarət ki, əsas atributu milli tarımız olan bu ansambl respublikamızın hüdudlarından kənarlarda da məşhurdur".

Qədim, zəngin mədəniyyət xəzinəmizin ən ali zinətçilərindən olan –



**Bu sənətkar –**

tarixən inkişaf edən, texniki və bədii baxımdan təkmilləşən, müasirləşən muğam-musiqi-çalğı aləmimizin ustad davamçılarından olub. Ötən yüzilliyin ortalarından daha müstəqil və geniş meydan götürən sazəndəlik sənətimiz xanəndəliklə bərabər tutulmağa başlanmış, getdikcə yeni inkişaf mərhələləri qazanmış, bir çox məşhur ifaçıların (Sadıqcan, M.Cəmil, B.Mənsurov, Ə.Bakıxanov, Q.Pirimov, M.Mənsurov, B.Salahov, H.Məmmədov, H.Bayramov və b.) yetişməsinə səbəb olmuşdur. Əhsən Dadaşov klassik peşəkar ifaçılar içərisində xüsusilə seçilənlərdən, tarın (və udun) çalğı-fantaz elementlərini daha yüksək səviyyəyə qaldırmışlardandır.

Muğam və bəstəkar əsərlərinin tar və (ilk dəfə məhz Ə.Dadaşovun öz ansamblına daxil etdiyi) qədim çalğı alətlərimizdən biri olan udda müstəqil-solo ifaçılığı da bu sənətkarın yaradıcılığında xüsusi səslənməyə başlamış, udun ümumi tembr və ahəng palitrası daha da gözəlləşmişdir. Əhsən Dadaşov bir sıra rəng və təsniflərin də müəllifidir. Musiqi mütəxəssislərinin də vurğuladıqları kimi, özünəməxsus zəngin yaradıcılıq yolu keçən bu ustadın ifaçılıq fəaliyyəti çox gur çeşməni xatırladır. Bu çeşmədən çoxları su içib və içməkdədir. Əhsən Dadaşov ifaçılığında elə bir müdriklik, Şərq fəlsəfəsi, Dədə Qorqud müdrikliyi, ululuq yanğıları var ki, onun mahnı, hava-havacat çalğılarından da muğam xəyalatları dalğalanır. Onun yaradıcılıq və həyat yolunu araşdıranlar "Bu sənətkarın ifaçılıq üslubunu səciyyələndirən cəhətlərdən biri də ən sadə musiqi cümlələrindən tutmuş mürəkkəb, virtuoz gəzişmələrədək bütün musiqi komponentlərinin fərdiliyini, çalarlarını bənzərsiz mizrablarla dinləyiciyə çatdırmaq qüdrətində idi" kimi qənaətlərə gəliblər. "O, klassik və professional çağdaş musiqimizi, muğam hissələrini, guşələrini bir-birinə peyvənd edirdi! "Mübahisəsiz şedevr" kimi qiymətləndirilən "Əhsən "Şur"u" buna misal! O, heç bir muğamı qəlibə salmır, hər birinin "ladınaməxsus fəlsəfə"sini yaradırdı...

Sonda... ənənəvi (başqa sözlə, öyrəşdiyimiz) "Leyli-Məcnun", Əsli-Kərəm" duallıqları əksinə olan bir dastan –

**Əhsən və Qədir...**

Əlbəttə, ecazkar "Sona bülbüllər" hadisəsi üstdə.

Bunu "Ramedici Əhsən ilə ərköyün Qədirin sənət möcüzəsi" də adlandırmaq olar.

Öncə, onların biri-birilə bağlı dediyi sözlər:

Ə.Dadaşov: "Qədir Rüstəmov başqa aləmdir!"

Q.Rüstəmov: "Mən Əhsən müəllimə bütün ömrüm boyu borcluyam!"

Və 1968-ci ilin qaynar avqustu. Geniş studiyaya təntimiş halda daxil olub, əlindəki qavaldan bərk-bərk yapışıb, ətrafını özgə bir dünya kimi seyr edə-edə ansambla yaxınlaşan arıq, çəlimsiz, "qayışbaldır" oğlanın nəzərləri bir neçə gündü onu dilə tutub, "yola gətirmiş" Əhsən müəllimin təbəssüm dolu üz-gözündə gəzişəndə qulaqlarına bu sözlər dəyir: "Uşaqlar, bu çox cavan, əla dəlisov, əcəb ərköyün, əntiq məğrur oğlan Ağdamdandır, adı Qədirdi, Asəf Zeynallıda oxuyur. O biri oxumağını isə indi görərsiz. Məlumunuz olsun ki, bu gün xalq mahnısı "Sona bülbüllər"in məşqinə başlayırıq. Bunun neçə saat, neçə gün, neçə həftə davam edəcəyi isə... bu çox cavan, bu əla dəlisov, bu əcəb ərköyün, bu əntiq məğrur oğlanın bizə iltifatından asılı olacaq...

...İldırımlı anlar, şimşəkli məqamlar yaşana-yaşana başa gəlmiş, "daşlı-kəsəkli yollar" keçibən ərsəyə yetmiş bu möcüzə-ifanın alınmasında heç də az zəhmət çəkməmiş ansambl üzvlərinin xatirələrindən yaranmış belə bir ümumi qənaət:

Qədirin səsi Əhsən müəllimi, tarzənin təlatümü xanəndəni boğurdu elə bil. Əhsən müəllim sanki tarı yox, Qədirin ürəyini çalırdı. Onun gözləri də – barmaqları kimi, Qədirin səsinə səs verib oxuyurdu. Qədir misralardakı cəm şəkilçilərini (bülbül+lər, sünbül+lər və s.) yanğı və ustalıqla vurğuladıqca, Əhsən müəllim yenidən oyanır, yenidən çalmağa, yenidən müşayiət etməyə başlayırdı...

Bəli, –

**Deyirlər...**

o günlər deyirmişlər, bəli, bəli, bəli, nəhayət, tədbirlilər tədbirlisi Əhsən müəllim ipə-sapayatmaz Qədir Rüstəmovu oxuda bildi!

Təbiətin o qızmar, sənətə, yaradıcılığa ictimai-sosial vurğunluğun o qaynar çağlarında Qədirin minbir şıltağına dözübən, nəhayət, ondan belə bir sənət məcunu "qoparan" bu ustad – o ağırbatmanlıqda olan Əhsən müəllim 17 variantda yazılan o "Sona bülbüllər" lentini təbərriktək qoltuğuna vurub tele-radio komitəsinə qaçıbmış...

O "Sona bülbüllər"i ki, yarım əsrdən çoxdur hər kərə səsləndə nübar kimi dadlanır…

**Tahir ABBASLI**

№64 (1649)
11 sentyabr 2019
www.medeniyyet.az

## “Müasir dünya və informasiya cəmiyyəti”

AMEA-nın Fəlsəfə İnstitutunun İnformasiya cəmiyyətinin fəlsəfi problemləri şöbəsinin “Müasir dünya və informasiya cəmiyyəti” adlı yeni toplusu nəşr olunub.

Məcmuədə informasiya cəmiyyətinin fəlsəfi aspektləri, informasiya cəmiyyəti və informasiya təhlükəsizliyi, informasiya texnologiyaları, müasir geosiyasi proseslərdə informasiya amili, informasiya cəmiyyətində dövlətin demoqrafik siyasəti, informasiya cəmiyyəti və mədəniyyət, informasiya cəmiyyəti və təhsil və s. məsələlər fəlsəfi kontekstdən təhlil edilir.

## “Unudulmaya məhkum edilmişlər”

Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının inzibati mərkəzi olan Çerkessk şəhərində İkinci Dünya müharibəsi illərində Qaraçay xalqının deportasiya edilməsindən bəhs edən “Unudulmaya məhkum edilmişlər” sənədli filminin premyerası keçirilib.

Qaraçay-Çərkəz Tarix-Bədii Qoruğu və M.O.Bayçarov adına Muzeyin direktoru Xanafi Həsənov bildirib ki, film Qaraçay xalqının sürgün olunduğu yer, onların güzəranı və qonşu xalqlara olan münasibəti barədə ətraflı məlumat verir.

“Bu hadisə ilə bağlı şahidlərin danışdıqları bizim üçün çox vacib idi”, - deyə o bildirib.

Ekran əsərində repressiyanın qurbanları olan qaraçaylılar faciəvi həyatı barədə özləri danışır. Xoşbəxtlikdən onlar sonradan öz doğma yurdlarına qayıda bilirlər.

Filmdə həmçinin sürgün olunanlar sırasında çeçen, balkar (alanlar) və inquşların taleyindən də söhbət açılır.

# Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri

AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəylinin “Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri” monoqrafiyası çap olunub.

İnstitutdan bildirilib ki, “Elm” nəşriyyatında işıq üzü görən kitab Azərbaycan ədəbiyyatı tarixinin elmi-nəzəri cəhətdən dövrləşdirilməsinə həsr edilmiş ilk monoqrafik tədqiqatdır. Akademik İsa Həbibbəyli tərəfindən hazırlanmış sistemli dövrləşdirmə konsepsiyası əsasında çoxəsrlik Azərbaycan ədəbiyyatı tarixinin inkişaf mərhələləri müəyyən edilib. Elmi yeniliyi və əhəmiyyəti nəzərə alınaraq, tədqiqat işi çap olunmamışdan qabaq AMEA Rəyasət Heyətinin, AMEA Humanitar Elmlər Bölməsinin, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi şurasında və Beynəlxalq Türk Akademiyasının (Nur-Sultan) iclaslarında geniş müzakirə olunub.

Kitabda Azərbaycan ədəbiyyatı tarixinin təzkirəçilikdən elmi icmallara, ədəbiyyat tarixlərinə qədər inkişaf yolu izlənilib təhlil olunub. Bundan başqa, Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirməsi zamanı Azərbaycan xalqının milli maraqlarından və dövlətçilik meyarlarından çıxış edilərək azərbaycançılıq məfkurəsi, sivilizasiya faktoru, Azərbaycanda ədəbi cərəyanlar və ədəbi-tarixi prosesin reallıqları, prinsipləri əsas götürülüb. 450




səhifədən ibarət olan monoqrafiyada Azərbaycan ədəbiyyatı tarixinin on inkişaf mərhələsi göstərilib və hər bir ədəbi mərhələ elmi-nəzəri cəhətdən geniş şəkildə əsaslandırılıb.

Monoqrafiyada milli ədəbiyyat tariximiz mərhələlər üzrə dövrləşdirilərkən uzun illər ərzində əsas meyar kimi qəbul edilmiş marksist ictimai formasiyalar nəzəriyyəsinin tətbiqindən imtina olunub. Hələlik Müstəqil Dövlətlər Birliyi ölkələrinin heç birində, həmçinin qonşu ölkələrdə ədəbiyyat tarixinin dövrləşdirilməsi üzrə elmi-nəzəri təsnifat aparılmayıb.

Ciddi elmi-nəzəri əhəmiyyətə malik olan “Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri” monoqrafiyasının elmi redaktoru, AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə, məsul redaktoru filologiya üzrə elmlər doktoru Əlizadə Əsgərlidir.

Kitab tədqiqatçılar, ali məktəb müəllimləri və tələbələri üçün faydalı mənbə ola bilər.

# Mənfi obrazlar ustası

Kinosevərlərin yaddaşında yaşayan rus aktyoru Andrey Fayt Azərbaycan kinosunda da maraqlı obrazlar yaradıb. O, Azərbaycanda yaratdığı obrazlara görə sevilməsə də, hamının yaxşı tanıdığı bir aktyordur.

Rejissor Əlisəttar Atakişiyevin “Bir qalanın sirri” filmində Göygöz kosa, rejissor Tofiq Tağızadənin “Uzaq sahillərdə” filmində isə Mazelli obrazını məharətlə yaradıb. Məşhur aktyor ömrünün sonunadək kinoya çəkilib, amma, demək olar ki, heç bir filmdə müsbət rol almayıb.

Andrey Andreyeviç Fayt 29 avqust 1903-cü ildə Rusiyanın Nijni Novqorod şəhərində həkim ailəsində dünyaya göz açır. Atası inqilabçı təmayüllərə yaxın olub, buna görə də tez-tez həbs edilib. Növbəti dəfə həbs edildikdə Sibirə sürgün olunur. Lakin sürgünə aparılarkən öz pasiyentlərinin köməyi ilə qaçmağa müvəffəq olur. Fransaya gedir. Bir müddət sonra həyat yoldaşı iki oğlu ilə onun arxasınca gəlir. Onlar bir neçə il Paris yaxınlığındakı rus icmasında yaşayırlar. Andrey orada liseyə gedir. Birinci Dünya müharibəsi başlayanda atası fransız ordusunun həkimi kimi cəbhəyə gedir. Anası isə uşaqlarla birlikdə Moskvaya qayıdır.

Fayt gimnaziyanı Rusiyada başa vurur. Hava Donanması Mühəndisliyi İnstitutuna daxil olur. Bu arada Sergey Eyzenşteynin “Potyomkin” filminə çəkilir. Bundan sonra mühəndis olmaq fikrindən daşınır, aktyor olmaq həvəsinə düşür. Dövlət Kinematoqrafiya İnstitutuna qəbul olunur. 1927-ci ildə təhsilini başa vurur. Onu da qeyd edək ki, bu, peşəkar sovet kinoaktyorlarının ilk buraxılışı idi.

Aktyor sonralar xatirələr kitabında belə yazırdı: “1922-ci ilin qışı fəsl idi. Bilirdim ki, Moskvada Kinematoqrafiya İnstitutu var. Üzümü taraş etdim və təmiz köynək geyindim. Bu unikal institutun yerləşdiyi əraziyə getdim. Təsəvvür edin, ilin ortasında cavan bir oğlan instituta gəlir və tələbə olmaq arzusunu bildirir. İnstitutun rəhbəri onu imtahana buraxır...”.



Bundan sonra o ard-arda filmlərə çəkilir. Həmişə də onu mənfi rollara dəvət edirlər. O, personajın xarakterini açmaq üçün öz üzərində çox işləyirdi. Hər obraza uyğun hərəkətlər, baxışlar tapırdı. Bununla da tamaşaçını obrazın mənfi xüsusiyyətinə inandırmağa nail olurdu.

Andrey Fayt kinoda 60-dan çox rol oynayıb. Yaratdığı mənfi obrazlara görə, o, sovet ekranının “baş yaramaz”ı kimi tanınıb. Rejissorlar Faytı təkcə rollara uyğun xarici görünüşünə görə deyil, mənfi rolların mənəvi aləmini çox yaxşı ifadə etdiyinə görə çəkilişə dəvət ediblər. Aktyor “Ələddinin sehrli çırağı”nda Məğribli cadugər və “Əyri güzgülərin krallığı” filmindəki nazir Nuşrokov rollarını məharətlə oynayıb.

Andrey Fayt xatirələr kitabında yazıb: “Məndən soruşurlar, nə üçün mənfi rolları oynayırsan? Bu, çətindirmi? Əlbəttə, qəhrəmanları oynamaq xoşdur. Xüsusən, gənclikdə sənə zillənən ilhamlı gözləri seyr etmək məftunedicidir. Amma bu baxışlar mənə tanış deyil. Mən ekranda sui-qəsdlər törətmişəm, satqınlıq və diversiyalara rəhbərlik etmişəm. Ən qərarverici məqam isə mənim öz məqsədimə çatmağım olub. Sonda mənim planlarım alt-üst olub və cəzalanmışam. Zalda isə qopan alqışlar mənə yox, qəhrəmana ünvanlanıb...”.

Andrey Fayt qocalana qədər yaxşı formada olub. Filmlərdə tryuk səhnələrini özü oynayıb. 60 yaşında “Əyri güzgülərin krallığı” filminin çəkiliş meydanında atın üzərinə özü tullanıb…

Görkəmli aktyor 72 yaşında, 16 yanvar 1976-cı ildə vəfat edib.

**Savalan FƏRƏCOV**

# Orxan Kamal həqiqəti...

### “Oxucuya nəsə çatdırmaq istəyən yazıçının dünyaya özünəməxsus baxışı olmalıdır”

Zəngin ənənələr zəminində inkişaf edən Türkiyə ədəbiyyatının ən məhsuldar, eyni zamanda ziddiyyətli dövrü XIX-XX əsrlərdir. Bu dövrdə müxtəlif ədəbi cərəyanlar, fərqli istiqamətlər ictimai-siyasi reallıqlar əsasında ortaya çıxıb. Tanınmış türk alimlərindən Nihad Sami Banarlının dediyi kimi, bu ədəbiyyat bəzi millətlərin ədəbiyyatları sayaq “bir vətəndə, son beş-altı əsr içində yox, türklərin dəyişik vətənlərində 27 əsr müddətində” formalaşıb.

Türk ədəbiyyatına Avropa ədəbi fikrinin təsir imkanları həmişə geniş olub. Eyni zamanda burada formalaşan yaradıcılıq nümunələrinin dünya arenasına çıxmasında ciddi maneələr nəzərə çarpmayıb.

XX yüzillikdə qardaş ölkənin ədəbiyyatında seçilən imzalardan biri də sosializm realizminin nümayəndəsi, yazıçı-dramaturq Orxan Kamaldır. Türk ədəbiyyatını yeni forma və məzmunla zənginləşdirən sənətkar həmçinin xarici ölkələrdə çox oxunan müəlliflərdəndir. Bu il yazıçının anadan olmasının 105 ili tamam olur.

***

Orxan Kamal (Mehmet Rəşid Öyüdçü) 1914-cü il sentyabrın 15-də Adananın Ceyhan rayonunda dünyaya gəlib. Atası Əbdülqadir Kamali deputat və nazir, anası Əzimə xanım ziyalı bir qadın idi. 1931-ci ildə atası siyasi səbəblərdən Türkiyəni tərk etməli olur, ailə Suriyaya köçür. Orxan burada orta təhsilini yarımçıq buraxıb mətbəədə fəhlə işləyir. Bir il sonra təkbaşına vətəninə qayıdaraq Adanada fabrikdə işə başlayır. 1937-ci ildə geyim fabrikində işləyən Nuriyyə xanımla ailə qurur.

Orxan Kamalın heca vəznində yazdığı “Divarlar” adlı ilk şeiri 1939-cu ildə “Yeddi gün” jurnalında “Rəşad Kamal” imzası ilə dərc olunur. Onun başqa jurnallarda “Rəşid Kamali”, “Orxan Rəşid” imzaları ilə də şeirlərinin çap olunduğu məlumdur. Görkəmli şair-dramaturq Nazim Hikmətin yaradıcılığından təsirlənərək əvvəlcə sərbəst vəzndə şeirlər yazsa da, sonradan nəsrə meyl göstərir. İlk nəsr əsərlərini “Orhan Bacaqsız” (ayaqsız) təxəllüsü ilə yazır. 1943-cü ildə “İkdam” qəzetində “Asma çubuq” hekayəsində ilk dəfə “Orxan Kamal” imzasından istifadə edir. O, rumın yazıçısı Panait İstrati və rus ədibi Maksim Qorkinin əsərlərindən daha çox təsirlənirdi.

1938-ci ildə əsgərlikdə ikən “Maksim Qorki və Nazim Hikmətin kitablarını oxumaq”, habelə “xarici rejim lehinə təbliğat aparmaq və üsyana təhrik” etməkdə təqsirləndirilərək 5 il həbs



cəzasına məhkum olunur. 1940-cı ildə Bursa həbsxanasında Nazim Hikmətlə tanış olur, ondan fransız dili, fəlsəfə və siyasət üzrə dərslər alır. Böyük şair Orxandakı yazıçılıq istedadını yüksək qiymətləndirir və onu yaradıcılıq fəaliyyətinə təşviq edir. “On səkkiz yaş” adlı ilk romanını da N.Hikmətin köməyilə yazır.

1943-cü ildə həbsdən azad edildikdən sonra Adanaya qayıdır. Bir müddət torpaqdaşıma işində çalışır, dəmiryolunda fəhləlik edir. Yazıçı bununla belə, bədii yaradıcılığını davam etdirir, həyatın reallıqlarını sadə bir dillə qələmə alırdı.

***

“Kiçik adamın qeydləri” silsiləsinin ilk kitabı olan “Ata evi” əsəri Orxan Kamalın avtobioqrafik çalarlarla zəngin olan qələm məhsuludur. Ədib kitabın ön sözündə yazır: “Kiçik adam”la Adana çayxanalarından birində rastlaşdım. Saqqallı üzünü əlləri arasına alıb düşünürdü. Açıq-mavi gözləri, qıvrım sarı saçları vardı. Bir-birimizi uzun-uzadı nəzərdən keçirdikdən sonra yanıma gəldi. Məni kiməsə oxşatdığını dedi. Başa düşürdüm ki, məqsədi mənimlə münasibət qurmaqdır. Dərhal dostlaşdıq. Öz həyatını mənə çox sonralar, çoxlu israrlardan sonra, uzun-uzadı danışdı. Danışdıqlarını yazmağı məsləhət gördüm, güldü. “İstəyirsən, sən yaz” dedi. Coşqunluqla danışdıqlarından götürdüyüm qeydlər, sanki bir xəyaldır. Bir cilddən sonra yəqin ki, ikinci, üçüncü, dördüncü cildlər meydana gələcək... İndi haradadır? Kim bilir? “Kiçik adam”lara məxsus əzablı həyatını yaşayaraq, bəlkə İzmirdə, bəlkə İstanbulda, bəlkə də Vanda”.

İstedadlı yazıçı 1970-ci ildə Bolqarıstan Yazıçılar Birliyinin dəvətilə müalicə olunmaq üçün Sofiyaya gedir, iyunun 2-də orada ürək çatışmazlığından vəfat edir. İstanbulun “Zəncirliquyu” məzarlığında dəfn olunub.

***

Orxan Kamalı bir yazıçı kimi daha çox məşhurlaşdıran 1949-cu ildə yazdığı “Çörək qovğası” adlı hekayələr kitabı və özünün həyatından bəhs edən “Kiçik adamın qeydləri” adlı romanı olub. Ümumiyyətlə, müəllifin bir çox əsərləri – “Nazim Hikmətlə üç il yarım” (1947), “Sərxoşlar” (1951), “72-ci kamera” (1954), “Arxa küçə” (1956), “Qardaş payı” (1957), “Babil qülləsi” (1957), “Dünyada hərb vardı” (1963), “Ata evi” (1949), “Günahkar” (1957), “Dövlət quşu” (1958), “Kafirin qızı” (1959), “Qürbət quşları” (1962), “Küçə uşağı” (1963), “Qanlı torpaqlar” (1963), “Yalançı dünya” (1966), “Evlərdən biri” (1966), “Müfəttişlər müfəttişi” (1966), “Pis yol” (1969), “Kiçiklər və böyüklər” (1971) və başqa kitabları oxucuların rəğbətini qazanıb.

Yazıçının Azərbaycanda da populyar olan romanlarından biri “Yad qızı” (1960) əsəridir. Romanda gənc qadın Nazanın, həyat yoldaşı vəkil Məzhər bəyin faciəsi bir əyalət şəhəri və qaynar İstanbul həyatı fonunda cərəyan edir. “Yad qızı” türk ədəbiyyatında uşaqlıqdan gənclik dövrünə keçidi ən yaxşı anladan əsərlərdən sayılır. Roman bir gəncin dilindən söylənir. Onun atası Qurtuluş savaşının iştirakçısı olan bir adanalı hüquqşünas müharibədən sonra hakimiyyətlə düz gəlməyərək ailəsi ilə birlikdə Beyruta mühacirət edir. Burada işləri tərs gedən, müflis olan ailənin böyük oğlu – romanın qəhrəmanı atasını razı salıb vətəni Adanaya qayıdır. Yenə yoxsul həyat sürməyə davam etsə də, ailəsinin təzyiqindən canını qurtarıb həyatdan zövq almağa başlayır. Özünə dostlar tapır, ürəyi istəyən qədər futbol oynayır, qızlarla tanış olur...

Görkəmli ədib əsərlərində XX əsr Türkiyəsinin reallıqlarını, sosial-siyasi problemləri, onları yaradan səbəbləri açıb göstərib, qadın hüquqsuzluğunu, müxtəlif təbəqələrdən olan insanların həyatını, xüsusən, sadə adamların acınacaqlı taleyini təsvir edib. O, hekayə və romanlarında yaratdığı obrazlara böyük məhəbbətlə yanaşıb, onların təmiz və işıqlı tərəflərini ortaya çıxarıb, hətta ən acı həyat gerçəkliklərini nikbinliklə təsvir etməyə çalışıb.



Orxan Kamal və Nazim Hikmət
Bursa həbsxanasında (1940)

Müəllifin ən dəyərli əsərlərindən hesab olunan “Bərəkətli torpaqlar üzərində” (1954) romanında Adanadakı əkinçi və fəhlələrin çörəkpulu qazanmaq üçün qatlaşdığı əzablı həyat böyük ustalıqla qələmə alınıb.

Hekayəni roman yazmaq üçün keçid hesab edən Orxan Kamal deyirdi: “Məncə, yaxşı hekayə yaza bilməyən yazıçı roman yaza bilməz. Oxucuya nəsə çatdırmaq istəyən insanın dünyaya özünəməxsus bir baxışı olmalıdır və o, hadisələrə bu nöqteyi-nəzərdən qiymət verməlidir. Peşəkar hekayəçi yaşadığı dövrün mədəniyyətini də yaxşı bilməlidir. Əsas məsələ hekayənin dilidir. Ona görə də hekayəçinin öz dilini mükəmməl bilməsi və bu dilin dialektlərinə bələd olması vacibdir”.

Yazıçının bir sıra əsərləri səhnələşdirilib, bəzilərinin əsasında bədii filmlər (“Qürbət quşları”, “Dövlət quşu”, “Tərsinə dünya” və s.), populyar seriallar (“Bir Filiz vardı”, “Xanımın tarlası” və b.) lentə alınıb. Müəllif dəfələrlə Türkiyənin ən yaxşı yazıçısı, ən yaxşı dramaturqu seçilib. Bir çox yaradıcılıq nümunəsi ölkəsinin müxtəlif ədəbi mükafatlarına layiq görülüb. Ölümündən sonra, 1972-ci ildə Türkiyədə “Orxan Kamal mükafatı” təsis edilib. Yazıçının əsərləri bir çox dillərə, o cümlədən Azərbaycan dilinə tərcümə olunub.

Orxan Kamalın həyat həqiqətlərinə söykənən, cəmiyyətin problemlərini mükəmməl şəkildə təsvir edən əsərləri həqiqi ədəbiyyat materialı kimi bütün zamanlarda aktuallığını qoruyub saxlayacaq.

**Aynurə ƏLİYEVA**

## Məşhur ispan müğənnisi Kamilo Sesto dünyasını dəyişib

70 milyondan çox albomu satılan İspaniyanın dünyaca məşhur müğənnisi Kamilo Sesto 72 yaşında dünyasını dəyişib.



Bu barədə sənətçinin sosial media hesabında açıqlama verilib. Müğənni Madriddə müalicə olunduğu xəstəxanada ürəktutmasından vəfat edib.

Qeyd edək ki, 1960-cı ildən tanınmağa başlayan Kamilo Sesto 1971-ci ildə işıq üzü görən ilk albomu ilə məşhurlaşıb. Sesto ingilis, alman, yapon və digər dillərdə də mahnı ifa edib.

## Günəş olaram mən də...

Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasında 21 avqust – 21 sentyabr "Beynəlxalq sülh aylığı" çərçivəsində "Günəş olaram mən də" adlı tədbir keçirilib.



Tədbirdə uşaqlara "Beynəlxalq sülh aylığı" haqqında məlumat verilib. Qeyd edilib ki, 21 sentyabr – Beynəlxalq Sülh Günüdür. Bu gün BMT tərəfindən 1981-ci ildə təsis edilib. Sülhün qorunması, insanların əmin-amanlıqda yaşaması, amansız müharibələrin və hər cür zorakılığın dayandırılması arzusu bütün tarixi boyu bəşəriyyəti düşündürüb. Hazırda dünyanın bir çox ölkələrində müharibə və münaqişələr davam edir. Sülh mövzusu torpaqları işğal altında olan Azərbaycanın uşaqları üçün də böyük əhəmiyyət kəsb edir.

Tədbirdə uşaqlar Günəşin maketini düzəldiblər. Sonra isə hər bir uşaq öz arzu və istəyini bildirib: "Həmişə sülh içində yaşayaq", "Səmamız aydın və təmiz olsun", "Dünyanın bütün xalqları əmin-amanlıq şəraitində yaşasınlar"… Uşaqların arzu və istəkləri sosial şəbəkələrdə izləyicilər tərəfindən maraqla qarşılanıb.

Tədbir "nağıl otağı"nda "Günəşin nağılı"nın izlənməsi ilə başa çatıb.

## "Açıq kitabxana"da növbəti təqdimat



Sentyabrın 7-də M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası nəzdində fəaliyyət göstərən "Açıq kitabxana"da Azərbaycan Yazıçılar Birliyinin üzvü, gənc yazar Ramil Əhmədin "İki şəhərin yazıları" kitabının təqdimatı olub. Kitabda müəllifin rəssamlıq, kino, roman və poeziya sənətinə dair esseləri toplanıb.

Milli Kitabxananın direktoru, professor Kərim Tahirov çıxış edərək gənc yazarı təbrik edib, ona yaradıcılıq fəaliyyətində uğurlar arzulayıb.

Direktor "Açıq kitabxana"nın fəaliyyət göstərdiyi üç il ərzində gənclərin dostuna çevrildiyini, bu məkanda gənc yazarların tez-tez kitab təqdimatlarının keçirildiyini diqqətə çatdırıb.

Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair Kənan Hacı, filologiya elmləri doktoru, professor Aqşin Babayev, Azərbaycan Yazıçılar Birliyinin Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin rəhbəri Səlim Babullaoğlu, şair Zahid Sarıtorpaq, ədəbiyyatşünas Ülvi Babasoy çıxış edərək gənc yazara yaradıcılıq axtarışlarında uğurlar arzulayıblar.

Sonda Ramil Əhməd kitabın işıq üzü görməsində əməyi keçən hər kəsə təşəkkür edib. O, kitabı imzalayaraq tədbir iştirakçılarına təqdim edib.

## Fotodan qələbəyə...

Sentyabrın 6-da Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) paytaxtın Xəzər rayonu ərazisindəki Ekoloji parkında "Georgian Drag 2019" beynəlxalq fotomüsabiqəsi qaliblərinin mükafatlandırılma mərasimi keçirildi.

Mərasimdən əvvəl qonaqlar qalib fotoqrafların işlərindən ibarət sərgi ilə tanış oldular.

"Eko park: Ekoloji Tədqiqatlar Mərkəzi" İctimai Birliyinin rəhbəri Tahir Şıxəliyev mərasimin belə bir məkanda təşkilindən məmnunluğunu ifadə etdi, qaliblərə yaradıcılıqlarında uğurlar arzuladı.

Müsabiqənin təşkilatçılarından olan Azərbaycan Fotoqraflar Birliyinin (AFB) bədii işlər üzrə sədr müavini, münsiflər heyətinin üzvü Rauf Umudov bildirdi ki, müsabiqə Gürcüstan Fotoqraflar Assosiasiyası tərəfindən Beynəlxalq Foto Sənəti Federasiyasının (FIAP) tərəfdaşlığı və "Eko park: Ekoloji Tədqiqatlar Mərkəzi" İctimai Birliyinin dəstəyi ilə keçirilib: "Müsabiqədə Azərbaycan fotoqraflarının da iştirakı və qələbəsi bizləri çox sevindirdi".

O diqqətə çatdırdı ki, müsabiqədə ümumilikdə 4 bölmə üzrə 157 mükafat uğrunda sənət yarışına 52 ölkədən 327 fotoqrafın 4733 əsəri daxil olub. Müsabiqədə Azərbaycan fotoqrafları 5 mükafat – 1 qızıl, 1 gümüş, 2 bürünc medal və mavi lent qazanıblar.

Daha sonra mükafatlar sahiblərinə təqdim olundu. AFB-nin üzvləri Şahin Sərkərov qızıl medal, Fərqanə Qasımlı gümüş, Aydın Mehdiyev və Nadejda Cavad bürünc medal, birliyin fəxri üzvü, Rusiya Fotoqraflar İttifaqının üzvü Svetlana Kamkova müsabiqənin diplomu ilə təltif olundu.

Tədbirdə iştirak edən Gürcüstan Fotoqraflar Assosiasiyasının sədri Kaxa Pxakadze və gürcü fotoqraf Nino Mqebrişvili sərgi barədə öz fikirlərini bölüşərək azərbaycanlı həmkarlarını təbrik etdilər, birgə əməkdaşlıqla fəxr etdiklərini vurğuladılar. Qonaqpərvərliyə və tədbirin



təşkilinə görə minnətdarlığını bildirən Kaxa Pxakadze "Georgian Drag 2019"a təqdim olunan əsərlərin çoxluğunu fotomüsabiqəyə olan marağın göstəricisi kimi dəyərləndirdi.

Qaliblər mükafata və onların foto duyğularının qiymətləndirilməsinə görə təşkilat komitəsinə, münsiflərə təşəkkürlərini bildirdilər. Vurğulandı ki, təqdim edilən işlərdə etnoqrafiya, sənət, sevgi, insanlıq, adət-ənənə kimi mövzular üstünlük təşkil edir. Sonda müsabiqə qalibləri və xarici qonaqlar eko-parkda ağac əkdilər.

**Lalə AZƏRİ**

## Dağların qoynunda musiqi festivalı

Quba rayonunun dəniz səviyyəsindən 2200-2300 metr yüksəklikdə yerləşən Xınalıq kəndində – Xınalıq Dövlət Tarix Memarlıq və Etnoqrafiya Qoruğunun ərazisində "Dağların başı" layihəsi çərçivəsində musiqi festivalı keçirilib.

Sentyabrın 6-dan 8-dək davam edən festival müddətində Azərbaycan, Gürcüstan və Macarıstandan olan ifaçılar öz bacarıqlarını nümayiş etdiriblər. Tədbir zamanı ustad dərsləri də təşkil olunub.

Festivalın açılışında Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev və Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid iştirak ediblər.

Fuad Nağıyev çıxışında Xınalıq Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğunun yeni konservasiya və inkişaf konsepsiyasının hazırlandığını diqqətə çatdırıb. Florian



Zenqstşmid isə qeyd edib ki, belə festivallar sosial-iqtisadi inkişafa təkan verməklə yanaşı, regionda turizmin inkişafını da təşviq edir.

Layihə ərzində ərsəyə gətirilmiş məhsulların satışı məqsədilə yarmarka da fəaliyyət göstərib. Bundan əlavə, açıq havada kino nümayişi də təşkil olunub.

Qeyd edək ki, "VarYox" mədəniyyət və incəsənət təşkilatının rəhbərlik etdiyi "Dağların başı" layihəsinin koordinasiyasını Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzi edir. Məqsəd incəsənət mütəxəssislərinin iştirakı ilə Xınalıq icmasının mədəni-sosial və iqtisadi həyatını canlandırmaq, toxuculuq üzrə yeni yaradıcı dizayn yanaşmasını tətbiq etmək, bu məkanın təbii və mədəni resurslarından istifadə edərək müxtəlif yeni fəaliyyət növlərini və məhsullarını yaratmaqdır.

Avqustun 16-dan başlayan layihə müddətində azərbaycanlı və xarici sənətkarlar Xınalıq kəndində məskunlaşıb, sənət nümunələri ərsəyə gətiriblər. Yerli əhaliyə xarici turistlərlə ünsiyyət bacarıqlarının gücləndirilməsi istiqamətində təlimlər keçilib.

### Xatirə təqvimi — 11-13 sentyabr

**Azərbaycan**

**11 sentyabr 1913** – Tanınmış kinorejissor və operator, Xalq artisti Muxtar Dadaşov (1913 - 7.5.1998) anadan olub. Bir sıra sənədli və bədii filmlərin operatoru olub. Quruluş verdiyi filmləri: "Arşın mal alan" (1965, Tofiq Tağızadə ilə birgə), «Qanun naminə», «Bakıda küləklər əsir» və s.

**12 sentyabr 1887** – Görkəmli yazıçı Yusif Vəzir Çəmənzəminli (1887 – 3.1.1943) Şuşada doğulub. Azərbaycan Xalq Cümhuriyyətinin İstanbulda səfiri olub, sonra mühacirətdə yaşayıb, 1926-cı ildə Azərbaycana qayıdıb. 1940-cı ildə həbs olunub, Rusiyanın Nijni Novqorod vilayətində həbs düşərgəsində vəfat edib. "İki od arasında" ("Qan içində") tarixi romanının, "Qızlar bulağı", "Bir cavanın dəftəri" və s. əsərlərin müəllifidir.

**12 sentyabr 1921** – Şair, dramaturq Novruz Gəncəli (Novruz İsmayıl oğlu Sadıqov; 1921 – 19.10.1995) anadan olub. C.Bayronun şeirlərini, B.Brextin "Kuraj ana və onun uşaqları" pyesini Azərbaycan dilinə çevirib.

**13 sentyabr 1893** – Əməkdar artist, opera müğənnisi Əli Əbdül oğlu Zülalov (1893-1963) Şuşada anadan olub.

**13 sentyabr 1933** – Görkəmli bəstəkar, Azərbaycanın və SSRİ-nin Xalq artisti, akademik, Dövlət mükafatı laureatı Arif Cahangir oğlu Məlikov (1933 – 9.5.2019) Bakıda anadan olub. "Məhəbbət əfsanəsi" baleti, "Dalğalar" operettası, "Füzuli", "Vətən", "Metamorfozlar" simfonik poemaları, 8 simfoniya və s. əsərlərin müəllifidir. Filmlərə ("Sehrli xalat", "Axırıncı aşırım"), tamaşalara musiqi yazıb. Bakı Musiqi Akademiyasının professoru olub.

**13 sentyabr 1969** – Xalq rəssamı İsmayıl Hüseyn oğlu Axundov (15.4.1907 – 1969) vəfat edib. Azərbaycan Rəssamlar İttifaqının ilk sədri olub.

**Dünya**

**11 sentyabr 1524** – Fransız şairi Pyer de Ronsar (Pierre de Ronsard; 1524-1585) anadan olub. Əsərləri: "Odalar", "Himnlər" və s.

**11 sentyabr 1862** – Amerika yazıçısı, novella janrının ustası O` Henri (William Sydney Porter; 1862-1910) anadan olub. Əsərləri: "Dörd milyon", "Yanan lampa", "Taleyin yolları" hekayələr toplusu, "Krallar və kələm" romanı və s.

**11 sentyabr 1865** – Latviya şairi və dramaturqu Yan Raynis (əsl soyadı Pliekşans; 1865-1929) anadan olub. Kitabları: "Tufan səpini", "Son və başlanğıc", "Evə".

**11 sentyabr 1894** – Ukrayna kinorejissoru, SSRİ Xalq artisti Aleksandr Dovjenko (1894-1956) anadan olub. Filmləri: "Arsenal", "Torpaq", "Aeroqrad" və s.

**11 sentyabr 1885** – İngilis yazıçısı David Herbert Lourens (David Herbert Lawrence; 1885-1930) anadan olub. Psixoloji romanları ilə məşhurlaşıb: "Göyqurşağı", "Vurğun qadınlar", "İtkin qız", "Ledi Çatterleyin məşuqu".

**11 sentyabr 1903** – Alman filosofu və musiqişünası Teodor Adorno (Theodor Ludwig Wiesengrund-Adorno; 1903-1969) anadan olub.

**11 sentyabr 1914** – Görkəmli türk maarifçisi, naşir və mütəfəkkir İsmayıl Qaspıralı (Gasprinski; 8.3.1851 – 1914) vəfat edib. Türk dünyasının maariflənməsində rol oynamış "Tərcüman" qəzetinin naşiri olub.

**11 sentyabr 1937** – Rusiya müğənnisi, SSRİ Xalq artisti İosif Davidoviç Kobzon (1937-2018) anadan olub.

**12 sentyabr 1921** – Polyak satirik yazıçısı Stanislav Lem (Stanislaw Lem; 1921-2006) anadan olub. Əsərləri: "Solyaris", "Səmanın səsi", "Yerdə sülh", "Aldebarandan müdaxilə" və s.

**13 sentyabr 1874** – Avstriya bəstəkarı Arnold Şönberq (Arnold Franz Walter Schoenberg; 1874-1951) anadan olub. Musiqidə ekspressionizmin nümayəndəsi, "Moisey və Aaron" operası, "İntizar" monodramı və s. əsərlərin müəllifidir.

**13 sentyabr 1894** – İngilis yazıçısı və dramaturqu Con Boynton Pristli (John Boynton Priestley; 1894-1984) anadan olub. Əsərləri: "Mehriban dostlar", "Mələk küçəsi", "London dalanı", "Cənnət guşəsi" (pyeslər), "Qretlidə qaranlıq" (roman) və s.

**13 sentyabr 1905** – Fransız əsilli Amerika aktrisası, «Oskar» laureatı Klodet Kolber (Claudette Colbert - Lily Claudette Chauchoin; 1905-1996) anadan olub. Filmləri: "Kleopatra", "Bu bir dəfə gecə baş verib".

**Hazırladı: Vüqar ORXAN**

## "Danışan əlfəcinlər"

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında "Danışan əlfəcinlər" adlı aksiyaya başlanılıb.

Kitabxanadan bildirilib ki, aksiyanın keçirilməsində əsas məqsəd mütaliəyə dəstək olmaqla uşaq və yeniyetmələrin kitaba olan marağını artırmaq, onların özlərini ifadə etmə bacarıqlarının inkişafını təmin etməkdən ibarətdir.

Aksiyada iştirak edən uşaq və yeniyetmələr "Danışan əlfəcinlər"in köməyi ilə oxuduqları kitablar haqqında yaranmış təəssüratlarına əsasən həmin kitabları öz həmyaşıdlarına tövsiyə edirlər.

## Real həyatdan kino ekranına

### (II yazı)

Real həyat hadisələrindən bəhs edən filmlərlə bağlı ilk yazıda (qəzetimizin 28 avqust sayında) bu qəbildən olan xarici ekran əsərləri haqqında məlumat vermişdik. Budəfəki yazıda milli kinematoqrafiyanın məhsulu olan belə filmlərdən söz açacağıq.



İlk olaraq 1930-cu ildə çəkilmiş "Lətif" filminə nəzər salaq. Ekran əsəri Azərbaycan kəndlərində gedən kolxoz quruculuğunu və sosialist kəndinin həmin dövrdəki həyatını əks etdirir. Kəndlərin birində baş verən hadisələr zamanı yeddi yaşlı oğlanın (Lətif )qoçaqlığı filmin əsas süjet xəttini təşkil edir. Ekran işi Azərbaycan kinosu tarixində əsas qəhrəmanı uşaq olan ilk filmdir. Rejissor Mikayıl Mikayılovun (həm də ssenari müəllifi) çəkdiyi filmdə rolları Lətif Səfərov (Lətif rolunda), Ələsgər Ələkbərov, Həqiqət Rzayeva, Mustafa Mərdanov və başqaları canlandırıb.

Azərbaycanın ilk qadın təyyarəçisi Leyla Məmmədbəyovaya həsr olunan "İsmət" filmi 1934-cü ildə yenə Mikayıl Mikayılov tərəfindən ekranlaşdırılıb. Kinoəsərin əsas süjet xəttini təyyarəçi qadının həyatı və Əli Bayramov klubunun üzvü, qadınlar hərəkatının fəalı, 1933-cü ildə doğmaları tərəfindən qətlə yetirilmiş Səriyyə Xəlilovanın dramatik taleyi təşkil edir. Ssenari müəllifləri Mikayıl Mikayılov və Qriqori Braginski olan filmdə əsas rolları Juka Mixelson, Xeyri Əmirzadə, Əzizə Məmmədova və Möhsün Sənani oynayıb.

Onu da qeyd edək ki, "Lətif" və "İsmət" səssiz filmlərdir. Hər iki ekran əsəri Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli qərarı ilə Azərbaycan Respublikasında dövlət varidatı elan olunan filmlərin siyahısına daxil edilib.

"Uzaq sahillərdə" (1958) filmi Azərbaycan xalqının cəsur oğlu, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin İkinci Dünya müharibəsi illərində İtaliya və Yuqoslaviyada faşistlərə qarşı apardığı mübarizəyə həsr edilib. Rejissor Tofiq Tağızadənin filmində Mehdi Hüseynzadə (Mixaylo) rolunu Azərbaycanın Xalq artisti Nodar Şaşıqoğlu yaradıb. Ssenari müəllifləri İmran Qasımov və Həsən Seyidbəyli olan filmdə digər rollarda Ələsgər Ələkbərov, Adil İsgəndərov kimi görkəmli aktyorlar çəkilib.



"Azərbaycanfilm" kinostudiyasında istehsal edilən "Axırıncı aşırım" (1971, rejissor Kamil Rüstəmbəyov, ssenari müəllifi Fərman Kərimzadə) filmində hadisələr Azərbaycanın dağ kəndlərinin birində sovet hakimiyyəti qurulduğu ilk illərdə baş verir. Filmin əsas obrazları olan Abbasqulu bəy Şadlinski, Kərbəlayı İsmayıl və Qəmlo real həyatda yaşamış insanlardır. Azərbaycan kinematoqrafiyasının ən uğurlu filmlərindən hesab olunan kinolentdə Həsən Məmmədov, Adil İsgəndərov, Məlik Dadaşov, Hamlet Xanızadə, Həsənağa Turabov və Şahmar Ələkbərov kimi tanınmış aktyorlar çəkiliblər. 1972-ci ildə Tiflisdə V Ümumittifaq kino festivalında Adil İsgəndərov və Həsən Məmmədova "Ən yaxşı kişi obrazı"na görə mükafat verilib.

"Var olun, qızlar" (1972) filmi (ssenari müəllifləri Alla Axundova, Hüseyn Seyidzadə) 1958-ci ilin yayında Abşeron çimərliklərinin birində dənizdə batan uşaqları xilas edərkən özü həlak olan Bakı məktəblisi Tofiq Hüseynova ithaf edilib. Kinolent həlak olmuş gəncin məhz kimləri xilas etdiyi, xilas edilmiş qızların sonrakı taleyi barədə söhbət açır.

Filmin çəkilişləri zamanı yaddaşlardan silinməyəcək bir hadisə yaşanır. Belə ki, 1958-ci ildə dənizdə baş vermiş hadisə filmin çəkilişi zamanı yenidən təkrar olunacaqdı: şiddətli külək sahilə yaxın yerdə çimən balaca uşağı çəkib dənizin içərilərinə doğru aparır. Xoşbəxtlikdən Rüstəm rolunun ifaçısı Ömür Nağıyev yaxınlıqda imiş. O, suya tullanıb batan uşağı xilas edir.



Eldar Quliyevin rejissoru olduğu filmdə Rafael Dadaşov, Valentina Aslanova, Nurəngiz Gün, Həsənağa Turabov və başqaları çəkilib.

1919-1920-ci illərdə Gəncə quberniyasında baş vermiş inqilabi kəndli hərəkatı və onun başçısı, xalq arasında "Qatır Məmməd" adı ilə məşhur olan Məmməd Məmmədova həsr edilən film də maraqlı kinolentlərimizdəndir. "Qatır Məmməd" (1974) filmi Rasim Ocaqovun quruluşçu rejissor kimi böyük kinoda ilk işidir. Şair-dramaturq Zeynal Xəlilin eyniadlı pyesinin motivləri əsasında (ssenari müəllifləri Mixail Maklyarski, Kirill Rapoport) çəkilmiş filmdə əsas rolları Şahmar Ələkbərov, Rasim Balayev, Həsən Məmmədov və başqaları canlandırıblar.

**Nurəddin MƏMMƏDLİ**

№64 (1649)
11 sentyabr 2019
www.medeniyyet.az

# Anadolu festivalının son günü ölkəmizə həsr edilib



Xəbər verdiyimiz kimi, avqustun 30-dan sentyabrın 8-dək Ankarada XVI Beynəlxalq Anadolu Günləri Mədəniyyət və İncəsənət Festivalı keçirilib.

Türkiyə paytaxtının Etimesqut Bələdiyyəsi tərəfindən təşkil edilən ənənəvi festivalda ölkəmiz də təmsil olunub. Azərbaycanın Türkiyədəki səfirliyi tərəfindən ölkəmizə aid stend qurulub.

Sentyabrın 8-də festivalda Azərbaycan günü keçirilib. Mərasimdə rəsmi şəxslər, diplomatlar, Şirvan şəhərindən gələn nümayəndə heyəti iştirak edib.

Festivalın bağlanışı və Azərbaycan günü tədbirində Etimesqut Bələdiyyəsinin başqanı Ənvər Dəmirəl, Azərbaycanın Türkiyədəki səfirliyinin təhsil üzrə müşaviri Nəcibə Nəsibova, Şirvan Bələdiyyəsinin sədri Kürdoğlu Muradov çıxış ediblər.

Çıxışlarda Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərindən bəhs edilib, Türkiyə dövlətinin banisi Mustafa Kamal Atatürkün və ümummilli lider Heydər Əliyevin nəsihətləri xatırlanıb. Vətənlərimizin qorunması, torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin ruhlarına dualar oxunub.

Tədbirdə həmçinin məlumat verilib ki, sentyabrın 7-də PKK terrorçuları ilə atışmada xüsusi təyinatlı polis briqadasının Mardin şöbəsinin rəisi, əslən Etimesqut rayonundan olan Tufan Kansuvanın şəhid olması ilə əlaqədar tədbirin musiqili hissəsi ləğv edilib.

Qeyd edək ki, festivalda Azərbaycanın Türkiyədəki səfirliyi tərəfindən qurulan stend festivalın sonunadək fəaliyyət göstərib və maraqla qarşılanıb.



# Vyana mədəniyyət həftəsində Azərbaycan gecələri

## Modelyer Gülnarə Xəlilovanın kolleksiyası xüsusi maraqla qarşılanıb



Avstriyanın paytaxtı Vyanada sentyabrın 1-dən 6-dək davam edən "Mədəniyyətlərarası bağlılığın uzun gecələri" mədəniyyət həftəsində Azərbaycan da fəal təmsil olunub. Mənzil-qərargahı Vyana şəhərində yerləşən Beynəlxalq Mədəni Müxtəliflik Təşkilatının (İnternational Cultural Diversity Organization – İCDO) təşkil etdiyi silsilə tədbirlərə Azərbaycan Mədəniyyət Mərkəzi də tərəfdaş kimi qoşulub.

Həftə ərzində Azərbaycanın milli rəqs və geyimlərinə həsr olunmuş tədbirlər, qadınların cəmiyyətdə roluna dair podium diskussiyası və qala gecəsi keçirilib.

Mədəniyyət həftəsində ümumilikdə 60-dək ölkənin nümayəndələri iştirak edib.

Tədbirin bədii hissəsində gənc musiqiçilər kiçik konsert proqramı ilə çıxış ediblər. Gənc azərbaycanlı pianoçu, bəstəkar və dirijor, beynəlxalq müsabiqələr laureatı Abuzər Manafzadə Azərbaycan bəstəkarlarının əsərlərini, eləcə də özünün bəstələdiyi "Xocalıya" kompozisiyasını ifa edib və bu ifa tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

Podium diskussiyasında müxtəlif ölkələrin səfirləri, beynəlxalq təşkilatların təmsilçiləri və Vyana meriyasının rəsmiləri çıxış ediblər.

Çıxışçı qismində dəvət olunan Azərbaycanın Bolqarıstandakı səfiri Nərgiz Qurbanova gender bərabərliyindən danışarkən diqqətə çatdırıb ki, hələ yüz il öncə Azərbaycan Xalq Cümhuriyyətində etnik, dini və sosial mənşəyindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar, o cümlədən qadınlara seçki hüququ verilmişdi. Bildirilib ki, Azərbaycanın tanınmış xeyriyyəçilərindən olan Hacı Zeynalabdin Tağıyev 1901-ci ildə Bakıda müsəlman qızlar üçün ilk dünyəvi məktəb açmış, 1908-ci ildə isə Qarabağ xanlığının son hökmdarının varislərindən Həmidə Cavanşir oğlan və qızların birlikdə oxuduğu məktəb təşkil etmişdi.

Bütün bu addımlar hələ XX əsrin əvvəlində Azərbaycanda gender bərabərliyi istiqamətində görülən işlər idi.

Azərbaycan Milli Geyim Mərkəzinin rəhbəri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Gülnarə Xəlilovanın hazırladığı Azərbaycan milli geyimləri də dəfilədə təqdim edilib. Azərbaycanlı dizaynerin milli geyimlərdən ibarət kolleksiyası tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb. Kolleksiyada Azərbaycanın müxtəlif regionlarının (Qarabağ, Bakı, Gəncə-Qazax) yüksək bədii ustalıqla tikilmiş kişi və qadın geyimləri də sərgilənib.



Podium diskussiyasında cəmiyyətdə və dövlət idarəçiliyində gender bərabərliyi, idarəçilik orqanlarında qadınların sayının artırılması, sülhün qorunması və qadınların cəmiyyətdə mövqeyinin gücləndirilməsi ətrafında fikir mübadiləsi aparılıb.

Mədəniyyət həftəsinin yekununda müxtəlif ölkələrin milli geyimlərindən ibarət dəfilə təşkil edilib.

Tədbirin moderatoru iştirakçılara Gülnarə Xəlilovanın yaradıcılığı və onun rəhbəri olduğu Milli Geyim Mərkəzi barədə məlumat verib, milli geyimlərin moda sərgisində nümayişi üçün göstərdiyi dəstəyə görə Azərbaycan Mədəniyyət Mərkəzinə təşəkkürünü bildirib.

"Mədəniyyətlərarası bağlılığın uzun gecələri" mədəniyyət həftəsi qala gecəsi ilə başa çatıb.

# "Ratkoviç poeziya axşamları"

Monteneqronun Biyelo Polya şəhərində 49-cu "Ratkoviç poeziya axşamları" festivalı keçirilib. Monteneqronun tanınmış şairi, eyni zamanda diplomat kimi fəaliyyət göstərmiş Risto Ratkoviçin xatirəsinə həsr olunan festival regionun əhəmiyyətli mədəniyyət tədbirlərindən biri hesab edilir.



Beynəlxalq festival Risto Ratkoviçin anadan olduğu Biyelo Polya şəhərində artıq 49 ildir təşkil edilir. Budəfəki tədbirə, Balkan regionu ölkələri ilə yanaşı, Türkiyə, Almaniya, Avstriya, Çin, Ukrayna, İspaniya və digər ölkələrdən mədəniyyət və incəsənət xadimləri qatılıblar. İlk dəfə festivalda ölkəmizi "Söz" ədəbi layihəsinin rəhbəri şairə Nigar Həsənzadə təmsil edib.

Festivalın açılışında Monteneqronun Mədəniyyət naziri Aleksandr Boqdanoviç çıxış edib.

Azərbaycan-Monteneqro Mədəni və İqtisadi Mərkəzinin dəvəti, Azərbaycanın Mədəniyyət Nazirliyi və ölkəmizin Monteneqrodakı diplomatik nümayəndəliyinin dəstəyi ilə tədbirdə iştirak edən Nigar Həsənzadənin şeirləri maraqla qarşılanıb.

Festival çərçivəsində Nigar Həsənzadə Monteneqronun Mədəniyyət naziri Aleksandr Boqdanoviç, akademik Zuvdiya Hodzic, Müstəqil Yazıçılar Birliyinin sədri Milorad Popoviç, dramaturq və yazıçı Dragana Tripkoviç ilə görüşüb.

Monteneqro tərəfinin təşəbbüsü ilə azərbaycanlı şairənin yeni kitabının tərcümə və nəşr edilməsi qərara alınıb.

# Antalyada növbəti Aspendos opera və balet şöləni

Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Dövlət Opera və Balet (DOB) Teatrı tərəfindən təşkil edilən ənənəvi Beynəlxalq Aspendos Opera və Balet Festivalı Antalya şəhərində davam edir.

Festivalın ilk iki günündə J.Bizenin "Karmen" operası nümayiş olunub. İstanbul və Antalya opera və balet teatrlarının artist və xor kollektivlərinin iştirak etdiyi tamaşa Zdravko Lazarovun dirijorluğu ilə təqdim edilib.

Aspendos Antik Teatrında keçirilən festivalın növbəti tamaşası 8 sentyabrda təqdim olunan P.Çaykovskinin "Sonalar gölü" baleti olub. Klassik baletin şah əsərlərindən olan tamaşa 300 illik tarixi olan Vyana Dövlət Opera və Balet Teatrı tərəfindən təqdim edilib.

12 və 13 sentyabr axşamlarında festivalda Antalya Dövlət Opera və Balet Teatrı tərəfindən C.Verdinin "Aida" operası göstəriləcək. İtaliyadan Fabrisio Maria Karminatinin dirijorluğu ilə Ankara Dövlət Opera və Baleti xor sənətçilərinin oxuyacağı bu əsərdə Radames partiyasını 12 sentyabrda məşhur tenor Murat Karahan, ertəsi gün Efe Kışlalı, Aidanı tanınmış soprano Françeska Tiburzi və Anna Neçayeva ifa edəcək.

Murat Karahanın rejissorluğu ilə Dövlət Opera və Balet Teatrının möhtəşəm layihəsi – "Troya" epik operası isə 16 sentyabrda Antalya Expo mərkəzində nümayiş etdiriləcək. Festival 18 sentyabrda M.Karahanın solist olacağı qala-konsertlə bitəcək.

**Mehparə SULTANOVA**
**Ankara**

# Nyu-York moda həftəsində "Xarıbülbül çiçəyi"

Azərbaycanlı dizayner Rüfət İsmayıl sentyabrın 4-dən 11-dək davam edən Nyu-York moda həftəsi çərçivəsində özünün 30 modeldən ibarət "Xarıbülbül çiçəyi" adlı yeni kolleksiyasını dünyanın məşhur "fashion" məkanı olan "Springs Studio"da təqdim edib.




Bu kolleksiyanı yaratmağa dizayneri Azərbaycanın Qarabağ bölgəsində bitən xarıbülbül çiçəyi ruhlandırıb. Çiçəyin təbii bənövşəyi və çəhrayı rəngli naxışı və görünüşü kolleksiya üçün istifadə olunan bənövşəyi, narıncı, yaşıl və çəhrayı rəngli parçaların həm rənglərində, həm strukturunda əksini tapıb.

2020-ci ilin yaz mövsümünün kolleksiyasının təqdimatından danışan dizayner deyib ki, burada səslənən Azərbaycanın Xalq artisti Aygün Kazımovanın ifa etdiyi "Vokaliz" kompozisiyası (musiqi – Eldar Mansurov) "Xarıbülbül" kolleksiyasının təqdimatını tamamlayır.

Tədbirdə iştirak edən müğənni Aygün Kazımova Rüfət İsmayılın moda nümayişini yüksək qiymətləndirib.

Xatırladaq ki, bu moda nümayişi azərbaycanlı dizaynerin Nyu-Yorkdakı üçüncü tədbiridir.

# Dünyanın ən çox səfər edilən və pul xərclənən şəhərləri

Ötən il səyahət həveskarlarının ən çox səfər etdikləri şəhər Tailandın paytaxtı Banqkok olub. 2018-ci ildə bu şəhərə 22,8 milyon turist gəlib.

"Mastercard" şirkəti ötən il turistlərin dünyanın ən çox səfər etdikləri və ən çox pul xərclədikləri şəhərlərin reytinqlərini ("Global Destination Cities Index") dərc edib.

Reytinqlər tərtib edilərkən turistlərin müəyyən şəhərdə ən azı bir gün gecələməsi nəzərə alınıb.

Banqkok səyahət həvəskarlarının ən çox səfər etdikləri şəhər olsa da, ən çox pul xərclənən şəhərlərin siyahısında üçüncü olub. Bu sırada birinci yeri Dubay (30,8 milyard dollar) tutub.

Turistlərin 2018-ci ildə ən çox səfər etdikləri şəhərlərin ilk onluğu belədir: Banqkok (Tailand) – 22,78 milyon nəfər; Paris (Fransa) – 19,1 milyon; London (Böyük Britaniya) – 19,09 milyon; Dubay (Birləşmiş Ərəb Əmirlikləri) – 15,93 milyon; Sinqapur (Sinqapur) – 14,67 milyon; Kuala-Lumpur (Malayziya) – 13,79 milyon; Nyu-York (ABŞ) – 13,6 milyon; İstanbul (Türkiyə) – 13,4 milyon; Tokio (Yaponiya) – 12,93 milyon və Antalya (Türkiyə) – 12,41 milyon nəfər.

Turistlərin 2018-ci ildə ən çox pul xərclədikləri şəhərlərin onluğu isə belə sıralanıb:

Dubay – 30,82: Məkkə (Səudiyyə Ərəbistanı) – 20,09 milyard dollar; Banqkok – 20,03; Sinqapur – 16,56; London – 16,47; Nyu-York – 16,43; Paris – 14,06; Tokio – 13,77; Palma-de-Malyorka (İspaniya) – 12,69; Phuket (Tailand) – 12,01 milyard dollar.

**İLONA**

# "Qızıl şir"i "Coker" qazandı

İtaliyada 76-cı Venesiya Beynəlxalq Kinofestivalı başa çatıb. 28 avqust – 7 sentyabr tarixində Lido adasında keçirilən festivalın münsiflər heyətinə rejissor, ssenarist və prodüser Lukresiya Martel rəhbərlik edib.





Avropanın (və ümumilikdə dünyanın) ən nüfuzlu üç kino yarışmasından (Kann və Berlin festivalları ilə birgə) biri olan Venesiya Film Festivalının baş mükafatını – "Qızıl şir" heykəlciyini amerikalı rejissor Todd Fillipsin "Coker" psixoloji trilleri qazanıb.

Münsiflər heyətinin qərarı ilə ikinci mükafat – Qran-pri rejissor Roman Polanskinin "Zabit və casus" ("Mən mühakimə edirəm") filminə verilib. "Gümüş şir"ə isə İsveç rejissoru Roy Anderssonun "Sonsuzluq haqqında" ("About the Infinite") filmi layiq görülüb.

Festivalda Arian Askarid ən yaxşı aktrisa, Luka Marinelli ən yaxşı aktyor nominasiyasının qalibi olub.

**SƏBİNƏ**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 530-34-38 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 4965
**Sifariş:** 3058
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.